Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

23
İYUN
2020-ci il
№ 99 (4230)
Qiymәti
40 qәpik

www.baki-xeber.com

Hәftәdә
5 dәfә çıxır

Qәzet
2003-cü ildәn
nәşr olunur

# AVROPARLAMENTDƏN ERMƏNİSTANA QƏTNAMƏ ZƏRBƏSİ - AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNƏ BİRBAŞA DƏSTƏK, TƏYİNİ MÜQƏDDƏRATDAN BİR KƏLMƏ DEYİLMƏDİ...

■ səh. 4 ■

2016-cı ilin Aprel döyüşlərində ermənilərin itkilərinin dəqiq statistikası - Azərbaycandan dəfələrlə artıq...
■ səh. 4 ■

Bakıdan Qarabağda hərbi həllə tam hazırlıq xəbərdarlığı, İrəvan Türkiyənin illər öncə hazırladığı hücum planının şokunda...
■ səh. 9 ■

Ermənistanda Azərbaycanın Qarabağda Liviya ssenarisini işə salacağı qorxusu... Ordumuzun arsenalına Türkiyənin KARGU kamikadze dronları gəlir...
■ səh. 5 ■

Rusiya ilə sıx bağlı oliqarxlar məhbus Köçəryan məsələsində Paşinyanın "dişini qırdılar"...
■ səh. 7 ■

Yoluxmaların sayı gündəlik artırsa... - Daha sərt qaydalara keçid, maskasızların cərimələnməsi... necə olar?
■ səh. 11 ■

Manat yenə regionda ən dayanıqlı valyuta oldu
■ səh. 10 ■

Məmurlar və deputatlar hansı şəraitdə virusa yoluxurlar...
■ səh. 12 ■

Koronavirusla mübarizə dövründə formalaşmaqda olan gözəl ənənə - dəbdəbəli restoran toyları tədricən sıradan çıxır, adi nikah mərasimləri...
■ səh. 15 ■



## İsrail Prezidenti Rivlinin Prezident Əliyevə məktubunda iki mühüm məqam - rəsmi dəvət və səfirlik məsələsi...

■ səh. 3 ■



## Türkiyənin Minsk Qrupu həmsədrləri ilə xüsusi «Qarabağ işi» - Çavuşoğlu maraqlı faktı yada saldı...

■ səh. 8 ■

## Paşinyan Rusiya ilə «qaz döyüşünü» uduzdu - əhali üçün qazın qiyməti dəyişmədi

■ səh. 6 ■

## Erməni mediası Paşinyanın Moskvada Qələbə paradından imtinasına dair rüsvayçı pərdəarxa mətləblər açıqlayıb...

■ səh. 6 ■




## «Amnesty İnternational»dan Azərbaycan barədə görünməmiş yalan - «hakimiyyəti tənqid edən jurnalisti dəlixanaya atırlar»...

■ səh. 8 ■

Cəmi bir gündə karantin qaydalarını pozan 1572 nəfərin cərimələnməsi - ekspertlər güzəştləri qəti yolverilməz sayır...

■ səh. 13 ■



Bankların bir məsələdə qeyri-şəffaf fəaliyyəti(?) - problemli kreditlərin məbləği həqiqətənmi gizlədilir?

■ səh. 15 ■



## Daha dörd rayona yeni prokuror təyinatları oldu - Kamran Əliyev əmr imzaladı

**Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin mılumatına görə, prokurorluq orqanlarında kadr korpusunun komplektləşdirilməsi istiqamətində işlər davam etdirilir.**

Belə ki, Baş prokuror Kamran Əliyevin imzaladığı əmrlərlə Ramazan Hadıyev Beyləqan, Rauf Gözəlov Qazax, Nazim Babayev Qəbələ, Behruz İbrahimov isə Yardımlı rayonunun prokuroru vəzifələrinə təyin edilib.

Kadr korpusunun peşəkarlıq və mənəvi keyfiyyətlərinə görə işçilərlə formalaşdırılması istiqamətində islahatlar davam etdiriləcək.

## Azərbaycanda daha 478 nəfər koronavirusa yoluxdu, 369 nəfər sağaldı, 7 nəfər vəfat etdi




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 478 yeni yoluxma faktı qeydə alınıb, 369 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib.

İndiyədək ölkədə, ümumilikdə, 13 207 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 7168 nəfər müalicə olunaraq sağalıb, 161 nəfər vəfat edib, 5878 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 4345, ötən müddət ərzində isə, ümumilikdə ,426 394 test aparılıb.

# Prezident İlham Əliyev Bakının Neapol küçəsindəki yerüstü piyada keçidinin açılışında iştirak edib

**Prezident İlham Əliyev iyunun 22-də Bakının Xətai rayonu, Neapol küçəsində yeni yerüstü piyada keçidinin açılışında iştirak edib.**



Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov piyada keçidinin texniki göstəriciləri barədə Prezident İlham Əliyevə məlumat verib.

Prezident İlham Əliyevə, həmçinin məlumat verilib ki, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 7-ci kilometrliyində, Bakı Beynəlxalq Avtovağzal Kompleksi ilə metronun "Avtovağzal" stansiyası arasındakı ərazidə əsas yolun hərəkət hissəsi genişləndirilərək zolaqların sayı 4-ə çatdırılıb. Bakı şəhərinin şimal girişində, xüsusən günün pik saatlarında yaşanan tıxacların aradan qaldırılması məqsədilə icra edilən bu layihə çərçivəsində "20 Yanvar" dairəsində yolun hərəkət hissəsi 10 metrə qədər, magistral yol Bakı Beynəlxalq Avtovağzal Kompleksinin qarşısından keçən hissədə isə hər iki istiqamət üzrə 1 hərəkət zolağı enində genişləndirilib.

Prezident İlham Əliyev görülən işlərlə bağlı tapşırıq və göstərişlərini verib.

# Şərqdə qadınlara ilk səsvermə hüququ tanımış Azərbaycanda daha bir ilk - qadınlar rayon prokurorları təyin olunmağa başlayır...

*"Tariximizdə ilk dəfə olaraq rayon prokurorları səviyyəsində xanımlarımızın irəli çəkilməsi buna bariz nümunədir"*

**Məlum olduğu kimi, Azərbaycan Prokurorluğu tarixində ilk dəfə xanım prokurorluq əməkdaşları rayon prokuroru vəzifələrinə təyin olunublar.**

Baş Prokurorluğun Mətbuat xidmətindən baki-xeber.com-a verilən məlumata görə, ölkənin prokurorluq orqanlarında funksional idarəetmənin səmərəliliyinin artırılması məqsədilə gənc və peşəkar kadr korpusunun komplektləşdirilməsi istiqamətində institusional islahatlar davam etdirilir.

Baş prokuror Kamran Əliyevin imzaladığı əmrlərlə müstəqil Azərbaycan Prokurorluğunun tarixində ilk dəfə olaraq xanım prokurorluq əməkdaşları vəzifədə irəli çəkilərək rayon prokuroru vəzifələrinə təyinatlar alıblar. Belə ki, Baş prokurorun imzaladığı müvafiq əmrlərlə Bakı şəhəri Nizami rayon prokurorunun köməkçisi Səadət Rüstəmova tutduğu vəzifədən azad edilərək Qobustan rayon prokuroru, Baş Prokurorluğun Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuror-metodisti Lalə Hüseynova isə tutduğu vəzifədən azad edilərək Zəngilan rayon prokuroru vəzifələrinə təyin ediliblər.

Azərbaycan tarixində ilk dəfə xanımların prokuror təyin edilməsinə şahidlik edirik. Xanım prokurorlar bu sahəyə nə kimi yenilik və avantajlar gətirə biləcəklər?



Tanınmış hüquqşünas, vəkil Əziz Qəmbərov baki-xeber.com-a bildirdi ki, zərif cinsin nümayəndələrinin belə yüksək və məsuliyyətli vəzifəyə təyin edilməsi təqdirəlayiq haldır. Ə.Qəmbərovun sözlərinə görə, Azərbaycanda dövlət, məhkəmə-hüquq quruculuğunda qadınların rolu danılmazdır. "Azərbaycanın dövləti həm öz Konstitusiyasında, eyni zamanda da qoşulduğu beynəlxalq konvensiyalara əsasən, qadın və kişi hüquqları bərabərliyi prinsipini tanıyan və bu prinsiplərə əməl edən ölkələr sırasındadır. Tariximizdə ilk dəfə olaraq rayon prokurorları səviyyəsində xanımlarımızın irəli çəkilməsi buna bariz nümunədir. Mən hesab edirəm ki, hətta gecikmiş bir addımdır. Tarixən bizim güclü diplomat xanımlarımız olub və dövlət əhəmiyyətli məsələlərdə yaxından iştirak edib və hazırda da iştirak edirlər. Buna əyani misallar da çəkmək olar.

Yeni təyin edilmiş prokuror xanımlarımızı şəxsən tanımıram. Ona görə onların nə kimi yenilik və avantaj gətirəcəklərini gələcək göstərəcək. Ancaq onu deyə bilərəm ki, zərif cinsin nümayəndələri daha həssas və məsuliyyətli olduqları üçün inanıram ki, bu təyinat effektli olacaq. Məsələnin digər tərəfi isə ondan ibarətdir ki, prokurorluq orqanı daim cinayətkarlıqla mübarizə apardığı üçün, bu sahənin ağır iş olduğu hamımıza bəllidir.

Ona görə də mən xanım prokurorlarımıza bu ciddi və məsuliyyətli işlərində uğurlar diləyərək, daim möhkəm olmalarını və qanunlarımızın onlara verdiyi çərçivədən kənara çıxmamaq şərtilə cəsarət arzulayıram" - deyə Ə.Qəmbərov vurğuladı.

***Günel CƏLİLOVA***

**Aydın Quliyev Telman Quliyevin bacısı Ceyran xanımın vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!**

# Azərbaycan Prezidenti Qarabağ prosesindəki ən ziyanlı nöqtəni ifadə etdi - "Ermənistan formatı və mahiyyəti dağıdır", həmsədrlər nə etməlidir...

**Bu günlərdə Prezident İlham Əliyev "Şərq Tərəfdaşlığı" ölkələrinin videokonfrans formatında keçirilən Sammitində çıxışı zamanı Ermənistanın Qarabağ danışıqlarında sərgilədiyi destruktiv mövqeyi bir daha ifşa etdi.**

*"ATƏT-in bu məsələdə susqunluğu və erməni tərəfinin mövqelərinə öz iradını bildirməməsi onu göstərir ki..."*

## Elşən Manafov: *"Həmsədrlər belə vəziyyətdə Ermənistana mütləq təzyiq göstərməlidirlər"*



Ölkə başçısı çox düzgün formada əsaslandırdı ki, Ermənistan danışıqların formatını və mahiyyətini dağıdır. Qeyd etdi ki, işğalçı tərəf beynəlxalq qərarları yerinə yetirmir: "BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasını tələb edir. Ermənistan bu qətnamələrə, habelə ATƏT, Qoşulmama Hərəkatı, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlarda qəbul edilmiş müvafiq sənədlərə əməl etmək əvəzinə, işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın Baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır".

O da məlumdur ki, Paşinyan Ermənistanın Baş naziri olandan sonra Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı danışıqların formatını və mahiyyətini məhv etməklə bağlı pozucu addımlar atır. Bu isə danışıqlara xələl gətirir. O baxımdan bu cür aydın olan vəziyyətdə həmsədrlər nə etməlidirlər?

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, belə vəziyyətdə həmsədrlər Paşinyan hakimiyyətinə təzyiq göstərməlidirlər: "Ermənistanın hazırkı hakimiyyətinin danışıqların formatını məhv etmək cəhdləri göz qabağındadır. Artıq neçə vaxtdır bu müşahidə edilir. Bu, ilk növbədə, ondan ibarətdir ki, Paşinyan separatçı qurumun danışıqlarda tərəf olaraq iştirak etməsini istəyir. Bəyan edir ki, "Artsax xalqı" da danışıqlara qoşulmalıdır. Bu isə, faktiki olaraq, illərdir mövcud olan danışıqlar formatının pozulması deməkdir. Azərbaycan haqlı olaraq bəyan edir ki, "Artsax xalqı"ndan söhbət gedə bilməz. Çünki ermənilər aborigen xalq deyil. Dəfələrlə Prezident İlham Əliyev bir sıra beynəlxalq tədbirlərdə tarixi faktlara istinad edərək bunu sübut edib. Digər tərəfdən, Paşinyanın münaqişənin həlli ilə bağlı konkret mövqeyi yoxdur. O, ötən illər ərzində problemin həlli ilə bağlı tamamilə dabandabana zidd bəyanatlar verir. Bu da onu göstərir ki, Ermənistanın hazırkı rəhbərliyinin münaqişənin həlli ilə bağlı konkret mövqeyi yoxdur. Ona görə də həmsədrlər belə vəziyyətdə Ermənistana mütləq təzyiq göstərməlidirlər. ATƏT-in Minsk Qrupu qurumun ona verdiyi mandat çərçivəsində fəaliyyət göstərməlidir. Ancaq biz bunu görmürük. ATƏT-in bu məsələdə susqunluğu və erməni tərəfinin mövqelərinə öz iradını bildirməməsi onu göstərir ki, sözügedən qurum illərdir sərgilədiyi ənənəvi mövqeyə "sadiqdir". Yenə də ikili standartlar və dişsiz mövqe özünü göstərməkdədir. ATƏT-in bu mövqeyinin Azərbaycan xalqında haqlı narazılıq yaratdığını dəfələrlə ölkə Prezidenti həmsədrlərin diqqətinə çatdırıb. Ona görə də ATƏT-in Minsk Qrupu bu iradlardan nəticə çıxarmalıdır".

**Bütün bunlar onu göstərir ki, həmsədrlər danışıqlar formatını məhv etməyə çalışan Ermənistana təzyiq göstərməyənə qədər, işğalçı tərəf danışıqları pozmaqda davam edəcək. Bu da münaqişənin həllini yubadacaq və müharibənin yenidən alovlanmasına zəmin yaradacaq.**

*Vidadi ORDAHALLI*

# İsrail Prezidenti Rivlinin Prezident Əliyevə məktubunda iki mühüm məqam - rəsmi dəvət və səfirlik məsələsi...

**Məlum olduğu kimi, artıq neçə vaxtdır Ermənistan hakimiyyəti İsraildə səfirlik açılması istiqamətində səylərini artırıb. Bununla bağlı Ermənistan və İsrail rəsmiləri arasında görüşlər olub. Ermənistan rəsmiləri və diplomatları İsraildə səfirliyin açılması mümkünlüyünü istisna etməyiblər.**



## Məhəmməd Əsədullazadə: *"İsrail bununla Azərbaycana dəyər verdiyini və bundan sonra da..."*

Ermənistan ona görə İsraildə səfirlik açmaq istəyir ki, İsrail-Azərbaycan əməkdaşlığına mane olsun. Çünki İrəvan bu əlaqələrdən narahatdır. İsrailin Azərbaycana müasir silahlar və hərbi texnika satması Ermənistanda böyük təşviş yaradır. Buna görə də Ermənistanın hakimiyyət nümayəndələri İsraildə səfirlik açmaq və bu yolla İsrail-Azərbaycan hərbi əməkdaşlığına mane olmaq istəyirlər.

Lakin müşahidələr göstərir ki, ermənilərin nə etməsindən asılı olmayaraq, İsrail Azərbaycanla əlaqələrə xüsusi önəm verir. Bu baxımdan İsrail Prezidenti Reuven Rivlinin Azərbaycan Prezidenti İlham Əliyevə məktubu diqqəti cəlb edir. Məktubda belə bir hissə var: "Gələn il Azərbaycan və İsrail diplomatik münasibətlərin yaradılmasının 30 illiyini qeyd edəcək. Cənab Prezident, fürsətdən istifadə edib münasibətlərimizdəki bu əlamətdar hadisəni qeyd etmək üçün Sizi İsrail dövlətinə tarixi səfərə dəvət edirəm". Məktubun ikinci hissəsindəki fikir də maraqlıdır: "Azərbaycanın yaxın gələcəkdə İsraildə səfirliyinin açılmasına səmimi qəlbdən ümid edirəm. Hər iki ölkədə diplomatik nümayəndəliklərin olması münasibətlərimizin möhkəmlənməsi və dərinləşməsi istiqamətində daha böyük addımlar atmağa təkan verəcək və bu da xalqlarımıza böyük fayda gətirəcək".

Bütün bunlar onu göstərir ki, Ermənistanın İsraildə, bu ölkə ilə yaxınlamaqla bağlı canfəşanlığına rəğmən, İsrail Azərbaycana daha çox önəm verir. Ermənistan İsraildə səfirlik açsa belə, bu ölkənin Azərbaycanla olan əlaqələrinə mane ola bilməyəcək.

*"Hesab edirəm ki, bu ölkədə diplomatik korpusumuz olmalıdır"*

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə bununla bağlı bir sıra məqamlara toxundu: "Əvvəla İsrail-Azərbaycan əlaqələrinin dərin kökləri var. Məhz iki ölkə arasında dərin münasibətlər səfirlik səviyyəsindən də yüksək səviyyəyə malikdir. Qeyd edim ki, səfirliyin olması bir ölkə ilə münasibətlərin yüksək səviyyədə olması demək deyil. Məsələn, elə ölkələr var, münaqişə vəziyyətindədirlər, amma səfirlikləri fəaliyyət göstərir. Məsələn, Ukrayna və Rusiyada ölkələri təmsil edən səfirliklər fəaliyyət göstərir. Ermənistanın İsraildə səfirlik açmasına gəldikdə isə, bu, iki ölkə arasında əlaqələrin yüksək inkişafına gətirməyəcək. Çünki Ermənistan İsrail üçün əhəmiyyət kəsb edən ölkə deyil. Azərbaycanın müsəlman aləmində yeri, coğrafi yerləşməsi və iki xalq arasında minilliyə dayanan dostluq bu münasibətlərin təməl prinsipləridir.

Məhz bu aspektdən yanaşaraq İsrail Prezidentinin İlham Əliyevə məktubunda qeydləri siyasi, tarixi əhəmiyyət daşıyır. Hesab edirəm ki, İsrail bununla Azərbaycana dəyər verdiyinin və bundan sonra da sözügedən münasibətlərdə maraqlı olduğunun mesajını verir. Ermənistan-İsrail əlaqələri, sadəcə, görünütüdür və bu heç bir iqtisadi, mədəni əlaqələrə söykənmir. Hesab edirəm ki, İsraildə diplomatik korpusumuz olmalıdır. İki ölkə arasında diplomatik münasibətlərin 30 illiyi Bakıda İsrail Prezidentinin iştirakı ilə keçirilməlidir. Düşünürəm, belə bir variant ola bilər".

*Vidadi ORDAHALLI*

# Avroparlamentdən Ermənistana qətnamə zərbəsi - Azərbaycanın ərazi bütövlüyünə birbaşa dəstək, təyini müqəddəratdan bir kəlmə deyilmədi...

**Avropa Parlamenti şənbə günü qətnamə qəbul edib. Qətnamədə Avroparlament "Şərq Tərəfdaşlığı" ölkələrinin ərazilərinin işğalını pisləyib. Sənəd Avropa Parlamentinin Litvadan olan deputatı Petras Auştreviçyus tərəfindən həmməruzəçilər Radoslav Sikorski, Anna Fotıqa (hər ikisi Polşa XİN-in keçmiş rəhbərləri olub), Attila Ara-Kovaç (Macarıstan) və Marketa Qreqorovanın (Çexiya) iştirakı ilə hazırlanıb.**



## *Fikrət Sadıqov: "Bu, Ermənistan diplomatiyasına endirilən növbəti zərbədir"*

Qətnamədə Azərbaycanın ərazi bütövlüyünə xüsusi dəstəyi ifadə edən müddəa öz əksini tapıb. Təşkilatın bu qətnaməsi işğal olunmuş torpaqların zor gücünə saxlanması siyasətini kəskin şəkildə pisləməklə, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi prinsiplərini təsdiq və təsbit edir. Sənədin preambulunda Avropa Parlamentinin 2010-cu il mayın 20-də qəbul edilmiş "Avropa İttifaqının Cənubi Qafqazda strategiyasına tələblər" adlı 2009/2216(INI) nömrəli qətnaməsinə istinad edilir. Bu qətnamənin 8-ci və 10-cu bəndlərində erməni qüvvələri tərəfindən tutulmuş ərazilər "işğal edilmiş ərazilər" adlandırılıb. Avropa Parlamentinin yeni qətnaməsində də, 10 il əvvəlki sənəddə olduğu kimi, Ermənistan tərəfin Qarabağ münaqişəsinin həllində israr etdiyi "təyini-müqəddərat hüququ" barədə bir kəlmə belə yoxdur. Sənəddə, həmçinin, qeyd edilir ki, "Şərq Tərəfdaşlığı" ölkələrinin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü hələ də həll edilməmiş regional münaqişələr, xarici təcavüz və həmin ölkələrin bəzilərinin ərazilərinin işğalının davam etməsi ucbatından pozulub. Daha sonra sənəddə xarici qoşunların işğal edilmiş bütün ərazilərdən dərhal çıxarılması barədə çağırış var.

Aİ-nin prinsipial mövqeyini əks etdirən bu sənəd Azərbaycan-Avropa münasibətlərinin fundamental prinsipləri olan sərhədlərin toxunulmazlığı, ərazi bütövlüyü kimi məsələləri tam şəkildə əks etdirməklə, "Şərq Tərəfdaşlığı"nda yaxın strateji tərəfdaş olan Azərbaycanla bağlı Avropa İttifaqının yekun və konkret mövqeyinin ifadəsi hesab edilə bilər.

Maraqlıdır, bəs ekspertlər qətnamənin əhəmiyyətini necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, sözügedən qətnamə Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi baxımından əhəmiyyətli bir sənəddir: "Bu sənəd Avroparlamentdə bir sıra ölkələri təmsil edən deputatların təşəbbüsü ilə hazırlanıb. Eyni zamanda, bu, kifayət qədər sağlam düşüncəli bir təşəbbüsdür. Qətnamədə birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyü dəstəklənib. Bu, Ermənistan diplomatiyasına endirilən növbəti zərbədir. Onların ərazi iddialarına qarşı vurulan yaxşı bir şapalaqdır. Ermənilər buna əməl etməyəcəklərsə, o zaman güc variantının tətbiq olunmasına hüquqi baxımdan zəmin yaranır. Hesab edirəm ki, sözügedən qətnamə bizim üçün güclü hüquqi bir əsasdır. Sabah Azərbaycan güc yolu ilə işğal altında olan əraziləri azad edəndə bizə heç kəsin icazəsi lazım olmayacaq. Ona görə də sözügedən qətnamə bizim üçün həm siyasi, həm də hüquqi əsasdır".

*"Ermənilər buna əməl etməyəcəklərsə, o zaman güc variantının tətbiq olunmasına hüquqi baxımdan zəmin yaranır"*

Yeri gəlmişkən onu da qeyd edək ki, bir neçə gün əvvəl Avropa Parlamenti Ermənistanın işğal etdiyi torpaqları özününküləşdirmək cəhdlərinə qarşı da bəyanat qəbul edib. Həmin sənəddə Azərbaycanın işğal olunmuş ərazilərindən keçməklə Ermənistanın işğal altında saxladığı Dağlıq Qarabağı birləşdirən üçüncü yolun çəkilişi işğalçı ölkə tərəfindən həyata keçirilən qanunsuz fəaliyyətin bir hissəsi kimi qiymətləndirilib. O cümlədən, təcavüzkar ölkənin bu hərəkətləri Avropa Parlamenti tərəfindən kəskin pislənib. Bütün bunlar bir daha onu göstərir ki, Qarabağ məsələsində beynəlxalq hüquq Azərbaycanın tərəfindədir.

***Vidadi ORDAHALLI***

# 2016-cı ilin Aprel döyüşlərində ermənilərin itkilərinin dəqiq statistikası - Azərbaycandan dəfələrlə artıq...

**Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Aprel döyüşlərində Ermənistanın itkiləri ilə bağlı maraqlı və yeni sayılacaq məlumat verib: "2016-cı ilin Aprel döyüşlərində ermənilər bizdən 10 dəfə daha çox itki veriblər. Biz haqq yolundayıq, biz Vətən üçün savaşırıq.**



## *İbrahim Rüstəmli: "Aprel döyüşlərində ermənilərin itkiləri statistikaya gəlməyəcək dərəcədə böyük həcmdədir"*

Bəs onlar nə üçün savaşır? 2016-cı ildə onlar bizdən 10 dəfə daha çox itki veriblər. Texnikanı götürsək, biz sadəcə 1 tank itirdik, onu da sonradan təmir etdik. Ermənilər isə 33 tank itirib, biz 1 top itirmişik, onlar 15 top. Bizdə olan məlumata görə, onlar 322 nəfər itiriblər. Məlum olub ki, bu azaldılmış rəqəm imiş. Onlar komissiyada 560 nəfərin öldüyünü ağızlarından qaçırıblar. Mən axı özüm də ön xətdə idim. Biz axı onların necə qaçdığını görürdük…"

Göründüyü kimi, müdafiə naziri Ermənistanın öz itkilərini ictimaiyyətdən gizlətdiyinə dair konkret rəqəmləri də ortaya qoyub. Ermənistanın bu statistikanı təhrif etməkdə hansı marağı olub?

Hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant İbrahim Rüstəmli "Bakı-Xəbər" qəzetinə açıqlamasında bildirdi ki, bunun başlıca səbəbi daxili ictimai rəydən ehtiyat etmələri ilə bağlıdır:"Qarabağ problemi Ermənistanda onlar bütün hakimiyyətlər və siyasi qüvvələr üçün hər zaman spekulyasiya mənbəyi olub. Hakimiyyətlərin dəyişməsi həmin məsələyə yanaşmada formanı dəyişsə də, məzmun və mahiyyəti dəyişməyib. Aprel döyüşlərində ermənilərin itkiləri statistikaya gəlməyəcək dərəcədə böyük həcmdədir. Aprel döyüşləri həm Ermənistanın təcavüzkar siyasətini ifşa etdi, həm də Azərbaycan ordusunun nəyə qadir olduğunu göstərdi. Üstəlik, ermənilərin özləri ilə bağlı yaratdıqları mifləri də darmadağın etdi. Bilirsiniz ki, orda "Ohanyan səddi" vardı. Bunun adını ermənilər qoymuşdu və keçilməsi mümkün olmayan sədd sayırdılar. Azərbaycan ordusunun şəxsi heyəti qəhrəmanlıq göstərərək, bir neçə saat ərzində həmin "səddi" darmadağın etdi. Bununla da Ermənistana sübut olundu ki, onların özləri haqda yaratdıqları rəvayətlər əslində heç bir reallığa cavab vermir. Aprel döyüşlərinə yalnız cəbhənin ön xəttindəki itkilərlə qiymət verməkolmaz. Ümumi konktekstdə yanaşsaq, biz həmin itkiləri bəlkə də 100 minlərlə hesablaya bilərik. Həmin döyüş ermənilərin özünə inamını sarsıtdı, ordularında xof və vahimə yaratdı. Onlar uzun illəri idi qazandıqları müəyyən müvəqqəti nailiyyətləri Azərbaycan ordusunun, güya fərarilərdən ibarət olması və qorxaqlığı ilə izah edirdilər. Həmin döyüşlər əsl reallığı üzə çıxardı. Biz bacardığımız qədər həmin qəhrəmanlıq salnaməsini oxuculara çatdırmalıyıq. Müharibə yalnız səngərdə getmir. Bunun ən vacib olan psixoloji aspekti var. Düşünürəm ki, Aprel döyüşləri bizim orduya həm də psixoloji üstünlük verdi. Ermənistan isə bu aspektdə xeyli sarsıldı. Onların həm canlı qüvvə, həm də texnika sarıdan itkilərinin çox olması təbiidir. Çünki döyüşlərin mahiyyəti də bunu deməyə əsas verirdi. Ermənistan daxili ictimai rəyi bütün detalları yaxşı bilir. Hakimiyyət bunu nə qədər gizlətsə də, mahiyyət aydındı. Həmin döyüşlər böyük qələbələrin müjdəsini bizə verən bir qaranquş rolunu da oynadı. Hesab edirəm ki, müdafiə nazirinin ifadə etdiyi fikirlər reallığı əks etdirir, ancaq ermənilərə vurulan mənəvi-psixoloji zərbəni daha ağır sayıram".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistanda Azərbaycanın Qarabağda Liviya ssenarisini işə salacağı qorxusu... Ordumuzun arsenalına Türkiyənin KARGU kamikadze dronları gəlir...

**Məlumdur ki, qardaş Türkiyə Suriyada uğurla tətbiq etdiyi "dron müharibəsi"ni Liviyada da uğurla həyata keçirir və nəticədə qarşı tərəf bundan böyük itkilər yaşayır. Artıq dünya miqyasında etiraf olunur ki, Türkiyə Suriyanın ardınca Liviyada özünün milli istehsalı olan pilotsuz döyüş təyyarələri ilə vəziyyəti kəskin dəyişməyə nail olub.**



Xatırladaq ki, Liviyada Türkiyənin dəstəklədiyi Milli Barışıq Hökuməti qiyamçı feldmarşal Xəlifə Haftarın ordusuna qarşı son həftələrdə ciddi nailiyyətlər əldə edib. Haftarın ordusunu Tripoli ətrafındakı strateji aviabazadan vurub çıxarıb və feldmarşalın paytaxtı tutmaq planlarının üstündən, ən azından, yaxın perspektivlər üçün xətt çəkib. Bu döyüşlərdə vəziyyətin Milli Barışıq Hökumətinin xeyrinə kəskin dəyişməsində Türkiyənin hərbi dəstəyi əsas rol oynayıb. Xüsusən də Türkiyənin Liviyada tətbiq etdiyi pilotsuz döyüş təyyarələri Haftarın ordusunu ciddi itkilərə məruz qoyub. Bütün bunlar, yəni Liviyada baş verənlər isə Azərbaycan üçün daha çox Türkiyə pilotsuz döyüş komplekslərinin tətbiqi baxımından maraq doğurmaqdadır. Bu fonda artıq bəllidir ki, Azərbaycan Türkiyədən pilotsuz uçuş aparatları almağa hazırlaşır. Müdafiə naziri general-polkovnik Zakir Həsənov da mətbuata müsahibəsində bildirib ki, Azərbaycan Türkiyədən pilotsuz uçuş aparatlarının (PUA) alınması məsələsinə baxır. Nazir hansı tip pilotsuz uçuş aparatlarının alınacağı barədə əlavə məlumat verməyib. Zakir Həsənov deyib ki, bu yaxınlarda təsdiqlənmiş hərbi maliyyə yardımı sazişi çərçivəsində Türkiyə Azərbaycana hərbi yardımlar edəcək. Zakir Həsənov bu ilin mart ayında keçirdiyi xidməti müşavirədə İdlib döyüşlərinin təcrübəsinin öyrənildiyini və Türkiyədən yeni silahların alınması üçün iş getdiyini demişdi.

Ekspertlər isə hesab edir ki, Azərbaycan Türkiyədən pilotsuz təyyarələrin müxtəlif versiyalarını alacaq. Bu arada isə yayılan bir xəbərə görə, Türkiyənin "STM Savunma Teknolojileri Mühendislik ve Ticaret A.Ş." şirkəti tərəfindən istehsal olunan KARGU kamikadze dronlarının ixracı üçün üç ölkə ilə danışıqlar aparılır. Bunlar sırasında artıq Azərbaycan da var. KARGU kamikadze-dronları Türkiyə ordusu tərəfindən ilk dəfə ölkənin cənub-şərqində PKK terrorçularına qarşı tətbiq olunub. Daha sonra bu dronlar Suriyanın şimalında gedən döyüşlərdə Türkiyə ordusunun silahlanmasında yer alan digər pilotsuz döyüş sistemləri, o cümlədən "Akıncı" və "Bayraktar" pilotsuz təyyarələri ilə birlikdə tətbiq edilib. "Defence Turk" portalı yazır ki, KARGU kamikadze dronlarının ixracı ilə bağlı 3 ölkə ilə danışıqlar gedir. Bunlar Türkiyəyə dost və qardaş ölkələrdir, yüksək səviyyədə aparılan danışıqlar nəticə vermək üzrədir. Qeyd olunur ki, süni intellektlə idarə olunan və avtomonom uçan, hədəfi müstəqil şəkildə təsbit edib vura bilən dron sistemərinin ixracı ilə bağlı danışıqları yaxın zamanda tamamlayacaq, ilk müqavilə imzalanacaq. Türkiyədən KARGU dronlarını almaq istəyən həmin üç dost-qardaş ölkədən biri də Azərbaycandır.

Burada xatırladaq ki, bu ayın əvvəlində Azərbaycanla Türkiyə arasında imzalanmış "Hərbi sahədə maliyyə əməkdaşlığı anlaşması" qüvvəyə minib. Bu anlaşmaya əsasən, Türkiyə Azərbaycana 200 milyon lirə məbləğində kredit xətti açır və Azərbaycan həmin pulla Türkiyədən hərbi texnika, silahlar ala bilər. Türkiyədən təhlükəsizlik və terrorla mübarizə eksperti Coşkun Başbuğ deyib ki, Azərbaycan qardaş ölkədən istədiyi silahı və texnikanı ala bilər. Amma inkişaf edən texnologiyaları, yeni müharibə metodlarını və regiondakı şərtləri nəzərə alaraq Azərbaycan Türkiyədən daha çox yeni döyüş sistemləri, o cümlədən pilotsuz döyüş təyyarələri, pilotsuz kəşfiyyat təyyarələri ala bilər. Bu fonda isə Suriyada, ardınca Liviyada Türkiyənin pilotsuz təyyarələrlə uğurla apardığı müharibə eyni ssenarinin Dağlıq Qarabağda da tətbiq ediləcəyinə dair fikirlərin meydana çıxmasına səbəb olub. Belə fikirlər, xüsusilə Ermənistanda gündəmə gəlir. Ermənistan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru, türkoloq Ruben Safrastyan hesab edir ki, Azərbaycan Qarabağda mümkün müharibədə Türkiyənin pilotsuz təyyarələrindən istifadə edəcək:"Azərbaycan və Türkiyə arasındakı hərbi əməkdaşlıq və müqavilələr də bunu deməyə əsas verir". Burada o da xatırladılır ki, 2016-cı ilin aprel müharibəsində Azərbaycan ordusu İsraildən aldığı pilotsuz təyyarələrlə düşmən ordusunun hərbi texnikası və canlı qüvvəsini effektiv şəkildə məhv etdi. Bu təcrübəni və dünyada artıq müharibələrin elektron formada aparıldığı reallığını nəzərə alsaq, Qarabağda mümkün müharibədə eyni ssenarinin tətbiq ediləcəyini demək olar. Türkiyənin Yaxın Şərqdə müharibə tarixini dəyişdirən elektron hərbi metodlarından ölkəmizin də yararlanmaq imkanı var. Ermənistanı narahat edən əsas amillərdən biri məhz budur. Erməni şərhçi Akop Badalyan iddia edir ki, Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan Azərbaycan prezidenti İlham Əliyevə hələ Ramazan bayramı münasibətilə zəng edərkən bu məsələlər də müzakirə olunub:"Ərdoğan İlham Əliyevə zəng vurdu. İki prezident koronavirusla mübarizəni müzakirə etdilər. Ehtimal ki, Türkiyə və Azərbaycan prezidentləri Suriyada və Liviyadakı müharibədən, Türkiyənin pilotsuz təyyarələrlə müharibə təcrübəsinin Qarabağda mümkün müharibədə də tətbiqindən danışdılar.

**Türklərin Liviyadakı uğurları Azərbaycanı ruhlandırır və azərbaycanlılar bunu öz qələbəsi kimi qəbul edir". Görünən budur ki, Türkiyə istehsalı olan müasir silah, hərbi texnika və avadanlıqların ordumuza qəbul edilməsi bundan sonra düşməni daha çox qorxuya salacaq.**

***Nahid SALAYEV***

**Ermənistanda iyulun 1-dən təbii qazın qiyməti bahalaşacaq. Erməni KİV-i xəbər verir ki, bu barədə qərar iyunun 19-da İctimai xidmətin tənzimlənməsi komissiyasının iclasında qəbul olunub. Bildirilib ki, Ermənistan əhalisinin aztəminatlı təbəqəsi üçün qiymət dəyişməyib.**



# Paşinyan Rusiya ilə "qaz döyüşünü" uduzdu - əhali üçün qazın qiyməti dəyişmədi

***Asif İbrahimov:** "Kommersiya obyektlərinə qazın baha satılması istehsal olunan məhsulun qiymətinin artmasına gətirib çıxaracaq ki, bu da Ermənistanda bahalaşma dalğası yaradacaq"*

Adi vətəndaşlar üçün də qiymətlər dəyişməyib. İri İstilik Elektrik Mərkəzləri növbəti min kubmetr təbii qaza görə 255,91 dollar ödəyəcək. Bunu Paşinyanın növbəti uğursuzluğu kimi qiymətləndirmək olarmı və vəziyyət Ermənistan üçün nə vəd edir?

Beynəlxalq qiymətləndirmə üzrə ekspert, iqtisadçı Asif İbrahimov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, təxminən bir il nəticəsiz danışıqlardan sonra Ermənistan hökuməti qazın qiyməti ilə bağlı Rusiya ilə danışıqları bərpa etmək istəyirdi:"Məlum olduğu kimi, əvvəlki danışıqlar Ermənistanın keçən il yanvarın 1-dən etibarən qiymət artımından sonra aldığı qazı eyni qiymətə almağa davam etməsi ilə başa çatmışdı. Başqa sözlə, bu danışıqlar idxal qiymətinin dəyişməz qalması ilə yekunlaşdı. Beynəlxalq bazarda enerji qiymətlərinin azalmasından sonra hazırkı dövrü Ermənistan hökuməti qazın qiymətinin yenidən müəyyənləşdirilməsi üçün müzakirələr aparılmasına görə əlverişli vaxt hesab edirdi. Bu məqsədlə Ermənistan Baş nazirinin müavini Mger Qriqoryan hökumət adından "Qazprom"un İdarə Heyətinin sədri Aleksey Millerə müraciət etdi. Rusiya qaz amilindən, iqtisadi vasitədən daha çox, siyasi təzyiq aləti kimi istifadə edib. Uzun müddət Ermənistanla Rusiya arasında da bu istiqamətdə anlaşılmazlıqlar olub. Görünən budur ki, Rusiya qazın qiyməti ilə bağlı Ermənistana heç bir güzəşt etmədi. Dünyada enerji daşıyıcılarının qiymətinin enməsi və koronavirus pandemiyasından istifadə edən Ermənistan fürsətçil davranmağa çalışırdı. Əvvəl bu məsələni Paşinyan Rusiya prezidenti Vladimir Putinlə baş tutan telefon danışığı zamanı qabartdı. Erməni tərəfinin verdiyi açıqlamaya görə, telefon danışığı zamanı qaz təchizatı məsələsi müzakirə edilib. Onlar ümidli idilər ki, məsələni Rusiya prezidenti ilə müzakirə edib ortaq məxrəcə gələ biləcəklər. Paşinyan, həmçinin, qazın dollarla deyil, rublla alınması təklifini də irəli sürmüşdü. Ardınca Ermənistan müzakirəni Rusiya rəhbərliyi ilə deyil, "Qazprom"la aparmağa başladı. Verilən qərardan bu nəticəyə gəlmək olar ki, bu il üçün idxal tariflərinə yenidən baxılma perspektivi yoxdur. Tərəflərin razılığı var ki, bu ilin sonuna qədər Rusiya qazı Ermənistana eyni qiymətə veriləcək. Bu vaxta qədər Ermənistan hakimiyyəti bunu güzəştli bir qiymət hesab edirdi. Bu qiymət sabitdir və beynəlxalq bazarlarda baş verən dəyişikliklərlə heç bir əlaqəsi yoxdur. Başqa sözlə, qiymətlərin artıb-düşməsindən asılı olmayaraq, bu, Ermənistana verilən qazın qiymətinə təsir göstərə bilməyəcək. Bu baxımdan da Ermənistanın Rusiyanın müəyyən etdiyi qiymətdən başqa qiymətə qaz ala biləcəyi inandırıcı görünmür. Çünki başqa alternativ də yoxdur. Ermənistanın daxilində situasiya gərgindir. Müxalifət qaz məsələsində məhz Rusiya seçiminin üzərində dayandığına görə Paşinyanı sərt tənqid edir. Məsələn, alternativ variant kimi İran qazı təklif olunur.

**Amma siyasi səbəblərə görə Paşinyanın buna gedəcəyi inandırıcı sayılmır. Qazın qiymətində heç bir güzəştin olmaması isə Ermənistanda vəziyyəti daha da pisləşdirəcək. Əhali üçün qiymətin sabit saxlanması o demək deyil ki, Paşinyan etirazlardan yaxa qurtarmış olur. Kommersiya obyektlərinə qazın baha satılması istehsal olunan məhsulun qiymətinin artmasına gətirib çıxaracaq ki, bu da Ermənistanda bahalaşma dalğası yaradacaq".**

*Məhəmmədəli QƏRİBLİ*

---

**Ermənistanın "Qraparak" qəzeti yazır ki, koronavirus fırıldağı üzə çıxdığı Paşinyan Moskvaya getmir. Qeyd olunub ki, Baş nazir Nikol Paşinyan epidemiya səbəbilə Moskva səfərini ləğv etdiyini açıqlayıb. Ancaq nəşrin mənbələrinə görə, bu heç də Paşinyanın dediyi səbəblərlə bağlı deyil. Səfərin alınmaması daha çox Kremlin yaratdığı maneələrə görə baş verir.**



# Erməni mediası Paşinyanın Moskvada Qələbə paradından imtinasına dair rüsvayçı pərdəarxa mətləblər açıqlayıb...

***Əli Orucov:** "Paşinyan qorxur ki, məlum testlər vasitəsilə Rusiya onun koronavirus yalanını həqiqətən də ortaya çıxara bilər"*

Sözügedən məsələ ilə bağlı qəzet maraqlı məqamlara toxunub. Bildirilir ki, Rusiya tərəfi Paşinyanın Moskva hava limanında koronavirus testindən keçməsini tələb edib, çünki onun infeksiyadan tez sağalması ilə bağlı şübhələr var: "Ermənistan Paşinyanın İrəvanda keçirilən mənfi testinin cavabını göndərməyi təklif edib, lakin ruslar imtina edərək, Baş nazirin yerindəcə yoxlanılmasının lazım olduğunu söyləyiblər. Paşinyanın həqiqətən də koronavirusa yoluxmadığı ortaya çıxsa, o zaman Rusiyaya girişi rədd ediləcək, çünki Ermənistan koronavirusun yayılması baxımından bölgədəki ən təhlükəli ölkədir".

Belə görünür ki, Paşinyan koronavirus yalanının rəsmən ortaya çıxacağından qorxduğu üçün sözügedən səfərdən imtina edib. Yoxsa, o, müəyyən məsələləri Putinlə müzakirə etməkdən ötrü həmin tədbirdən bir vasitə kimi istifadə edərdi.

Maraqlıdır, bəs ekspertlər bunu necə şərh edirlər?

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun fikrincə, koronavirus yalanı üzündən Paşinyanın səfərdən imtina etməsi müəyyən mənada inandırıcı görünür: "Məsələ ondadır ki, Rusiyanın Paşinyanla münasibətləri yaxşı deyil. Son dövrlər münasibətlərdə gərginlik bir az da artıb. Düzdür, sözügedən gərginlik əsasən qapalı müstəvidə özünü göstərir. Ancaq bir sıra məsələlərdə tərəflər arasında olan ciddi fikir ayrılıqları heç kəsə sirr deyil. Paşinyan, zatən, Kreml üçün arzuolunmaz şəxsdir. Baxmayaraq ki, Ermənistan Rusiyanın patronajlığı altında olan Aİİ, KTMT kimi qurumlarda təmsil olunur, amma bu, Paşinyana münasibətin müsbət mənada dəyişəcəyi demək deyil. Son vaxtlar Paşinyanla bağlı Rusiya mətbuatında tez-tez tənqidi yazılar dərc olunur. Bəzi məlumatlara görə, Paşinyanın qanunsuz bir sıra ticarət fəaliyyəti ilə bağlı faktların üzə çıxmasında Rusiya xüsusi rol oynayıb. Hansı ki, bununla bağlı erməni mediasında dərc olunan məlumatlar böyük rezonansa səbəb oldu. Belə olan halda, Paşinyan qorxur ki, məlum testlər vasitəsilə Rusiya onun koronavirus yalanını həqiqətən də ortaya çıxara bilər. Bu da onun biabır olması deməkdir. Digər tərəfdən, Ermənistanda daxili siyasi vəziyyət də çox gərgindir. Bu aralar Paşinyan ona yönəlik çevrilişdən qorxur".

*"Son dövrlər münasibətlərdə gərginlik bir az da artıb"*

Görünən odur ki, Paşinyan Rusiya ilə olan körpüləri yandırdığı üçün etimadı tam itirib. O üzdən, hər şeydən ehtiyat edir.

*Vidadi ORDAHALLI*

**Ermənistanda hazırkı hakimiyyətin rəqibləri ilə bağlı maraqlı proseslər cərəyan edir. Ermənistan Apelyasiya Məhkəməsinin 2 milyard dram(4,1 milyon ABŞ dolları) müqabilində azadlığa - zaminə buraxılması barədə qərarına uyğun olaraq, həmin məbləğdə girov ödənildikdən sonra eks-prezident Robert Köçəryan sərbəst buraxılıb.**

# Rusiya ilə sıx bağlı oliqarxlar məhbus Köçəryan məsələsində Paşinyanın "dişini qırdılar"...

Erməni mediası girov məbləğini ödəməkdə Köçəryan ailəsinə yardım etmiş iş adamlarının siyahısını əldə edib.

Samvel Karapetyan - Rusiyada qeydiyyatda olan, fəaliyyət göstərən və Qarabağın məskunlaşmasına fəal dəstək verən "Taşir" şirkətlər qrupunun rəhbəri.

Sergey Ambarsumyan - "Monarx" şirkətlər qrupunun sahibi.

Vladimir Yevtuşenkov - R.Köçəryanın da müstəqil direktor qismində İdarə Heyətinin üzvü olduğu Rusiyanın məşhur "AFK Sistema" şirkətinin əsas sahibi.

Gennadi Stepanyan - rusiyalı iş adamı və xeyriyyəçi.

Yardım siyahısında adları çəkilən şəxslərin Rusiya ilə birbaşa bağlılığı üzə çıxır, hətta onların arasında milliyyətcə rus olanı da var. Qeyd edək ki, Paşinyan digər rəqibi, "Çiçəklənən Ermənistan" partiyasının lideri Qaqik Tsarukyanı da həbs etdirməyə nail ola bilməyib. İrəvan məhkəməsi onunla bağlı həbs qətimkan tədbiri seçməkdən imtina edib. Partiya rəhbərinin vəkili Yerem Sarkisyan deyib ki, məhkəmənin siyasi proseslərdən üstün olmasından məmnundurlar. Bu mənada, vəkil məhkəmə iclasına rəhbərlik edən hakim Robert Papoyanın qərarını təqdir edib. Qeyd olunur ki, Tsarukyan hələlik azadlıqda olsa da, onunla bağlı proses qapadılmayıb. Həm Köçəryana, həm də Tsarukyana Rusiyadakı müəyyən dairələrdən də dəstəyin verildiyi iddiaları var. Ermənistanda Paşinyanın siyasi rəqibləri ilə bağlı baş verən prosesi necə dəyərləndirmək olar?



Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Paşinyan iqtidarının Köçəryana yönəlik təqibi və onun adının ətrafındakı manipulyasiyası onun xeyrinə işlədi:"Həmin ölkədə son bir neçə ayda aparılan sorğuların nəticəsində hazırda Köçəryanın ölkədə ən nüfuzlu siyasi lider kimi qəbul edilməsi faktı əksini tapdı. Yəni Ermənistanın həbsdəki keçmiş prezidenti yenidən reabilitasiya olundu. Eyni yanaşma bir az zəif formada Serj Sarkisyana da aid olunur. Məsələ ondadır ki, Sarkisyan və Köçəryan dövlət aparatına nəzarət və rəhbərlik etmiş şəxs kimi hakimiyyətə küçələrdən deyil, səngərlərdən gəliblər. Hər iki şəxs, Paşinyandan fərqli olaraq, Qarabağda hərbi əməliyyatlarda (cinayətlərdə-Y.H) iştirak edib, yəni erməni dövlətinin maraqlarına xidmət etmiş şəxslərdir. Son iki ildə hakimiyyətdə olan və erməni cəmiyyəti üçün heç bir real iş görməyən Paşinyan öz səriştəsizliyi ilə onların daha böyük nüfuz toplamasına səbəb oldu. Onlara qarşı aparılan repressiya, siyasi həbslər isə yenidən onları erməni cəmiyyətinin gözündə daha cəlbedici fiqurlara çevirir".

Politoloqun sözlərinə görə, Ermənistan daxilində gedən siyasi proseslərin analizi onu göstərir ki, son iki ildə hər iki keçmiş prezident və ümumilikdə "Qarabağ klanı" Paşinyan hakimiyyətinə qarşı gücləndi, baş verənləri öz xeyrinə çevirərək itirdiyi gücünü bərpa etdi:"Əlbəttə, burada Rusiya faktorunu da gözardı edə bilmərik. İqtisadiyyat və sənayesinin yetmiş faizi Rusiyaya məxsus olan bir ölkədə Moskvanın adamları kimi tanınan, Rusiyaya yaxınlığı ilə seçilən şəxslərin təqibi Paşinyan üçün məntiqi nəticələr verəcəkdi. Bununla erməni cəmiyyətinin ictimai-siyasi şüurundakı Rusiya stereotipi və bu mövzunun sakrallığı sındırılırdı ki, iqtisadiyat və sənayesinin yetmiş faizinin sahibi Rusiya buna imkan verməyəcəkdi.

Bu həftə isə Apelyasiya Məhkəməsi Ermənistanın ikinci prezidenti Robert Köçəryanın 4 milyon girov müqabilində həbsdən azad olunması barədə qərar çıxarıb. Həmçinin parlamentdə mövcud hökumətin dəyişdirilməsi labüdlüyünə dair çağırışlarından sonra həbs olunan, haqqında bir sıra cinayət işləri başladılan, parlamentdəki 132 mandatdan 25-nin sahibi FEP- partiya tərəfdarları siyasi təqiblərə məruz qalan Qaqik Tsarukyan da azad edildi.

Qaqik Tsarukyana qarşı irəli sürülmüş iddialardan biri də 2017-ci il parlament seçkilərində seçiciləri pulla ələ alınması iddiasıdır ki, seçkilərin total saxtalaşdırıldığı bir ölkədə belə iddia ilə məhkəmə başlatmağın özü bir qeyri-ciddi təşəbbüs idi. Cavab olaraq isə Firavan Ermənistan Partiyasının partiya üzvləri sosial mediada Nikol Paşinyanın yaratdığı və həyat yoldaşı Anna Hakobyan tərəfindən idarə olunan korrupsiya sxemi üzrə müxtəlif fondlar adı altında öz siyasi rəqibləri və devirdiyi hökumətin nüfuzlu simalarından rüşvət alması, köçürmələr, bank hesabları, vəsaitlər və fərdi hesabların olduğu məlumatları paylaşırlar. Məlumat üçün qeyd edim ki, 2019 -cu ilin yanvar ayında Davos Forumunda iştirak adı ilə Sürixdə olan Anna Hakobyan bu korrupsiya fondlarının yaradılması və idarə olunmasında birbaşa iştirak edib. Anna Hakobyana bu məsələlərdə Ermənistanın bir sıra nüfuzlu rəsmiləri ilə uzun illərdir şübhəli kontaktda olan isveçrəli bir iş adamı vasitəçilik edib. 2019-cu il 1 mart tarixinə olan məlumatlara əsasən, Ermənistan baş nazirinin həyat yoldaşı Anna tərəfindən birbaşa və ya dolayısı ilə nəzarət edilən hesablarda ümumi məbləğ nə az, nə çox - 1,5 milyard avroya çatmışdı. Aradan il yarım vaxt keçdiyinə görə bu fondlarda toplanmış məbləği ancaq ehtimal etmək olar. Bir sözlə, istər daxili, istərsə də xarici siyasətdə hakimiyyətə "facebook"dan, küçədən gəlmiş Paşinyanın səriştəsizliyi prosesləri idarəolunmaz bir səmtə yönəldib".

Politoloqun sözlərinə görə, son azad olunmaların içində, əlbəttə, diqqəti çəkən əsas məqam Robert Köçəryana qarşı tətbiq olunmuş həbs qətiimkan tədbirinin dəyişdirilməsi üçün vəsaitin kimlər tərəfindən ödənilməsi faktıdır:"Koçəryan üçün girov məbləği ödəyənlərin əksəriyyətinin Rusiya biznes nümayəndəsi və birinin də milliyyətcə rus olması maraqlıdır. Onu da qeyd edim ki, Köçəryanın necə azad olunması Rusiya Xarici işlər naziri Sergey Lavrovla Ermənistan Xarici işlər naziri Zöhrab Mnatsakanyan arasında keçən ay baş tutan telefon danışığında müəyyənləşib. Erməni mediasında Lavrovun Mnatsakanyanla danışıqlarında Köçəryanın həbsdə saxlanmasına sərt münasibət bildirməsi, rəsmi Ermənistan-Rusiya münasibətlərinin birbaşa Köçəryanın sərbəst buraxılmasına bağlı olması, onun iki dövlət arasında münasibətlərin memarlarından biri adlandırılması iddia olunan yazılar gedib. Zöhrab Mnatsakanyan isə Köçəryanın azad edilməsini Rusiya ilə bir sövdələşmə elementi olaraq istifadə etməyə cəhd edib".

***Məhəmmədəli QƏRİBLİ***

# Türkiyənin Minsk Qrupu həmsədrləri ilə xüsusi "Qarabağ işi" - Çavuşoğlu maraqlı faktı yada saldı...

***Akif Nağı:*** *"Bu, açıq şəkildə Minsk Qrupu həmsədrlərinə xəbərdarlıqdır"*

**Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Antalyada Türkiyənin yeni növ koronavirus (COVID-19) epidemiyası ilə mübarizədə normallaşma prosesində təqdim etdiyi təhlükəsiz turizm xidmətlərinin izah edildiyi "Yenidən kəşf et" adlı təqdimat tədbirində keçirilən mətbuat konfransında çıxışında deyib ki, Azərbaycan Qarabağ münaqişəsinin həll edilməsini necə arzu edərsə, Türkiyə də eyni şəkildə Azərbaycanın yanında olacaq.**

Çavuşoğlu Qarabağ münaqişəsinin və Azərbaycanın digər işğal olunmuş bölgələrinin taleyinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsini istədiklərini və bu ərazilərin Azərbaycan torpaqları olduğunu bildirib. BMT Təhlükəsizlik Şurasının qətnamələrini və digər beynəlxalq təşkilatların qərarlarını xatırladan nazir "Bu sənədlərdən aydın şəkildə görünür ki, həmin torpaqlar Azərbaycan əraziləridir. Təəssüf ki, ATƏT-in Minsk Qrupu münaqişənin həllində üzərinə düşən vəzifəni lazımi şəkildə yerinə yetirmədi. Bir neçə ay öncə onları Ankaraya dəvət edərək problemin diplomatik yolla həlli üçün səylərini artırmalarını istədik. Biz həm Rusiya, həm də ABŞ-la müzakirələrimizdə bu məsələni daim gündəmə gətiririk. Artıq bu münaqişənin həll olunmasının vaxtı çatıb".

Münaqişənin həll edilməsi ilə bağlı bəzi təkliflərin olduğunu ifadə edən Çavuşoğlu bu fikirləri səsləndirib:"Azərbaycan konstruktiv mövqe nümayiş etdirib. Ancaq Ermənistan buna qarşılıq vermir. Halbuki, beynəlxalq təşkilatların qərarları var, bütün dünya səy göstərir. Digər tərəfdən, Qarabağda qondarma seçkilər keçirildi. Biz beynəlxalq təşkilatlardan, Minsk Qrupundan bu seçkiləri tanımamağı və bunu açıq şəkildə söyləmələrini tələb etdik. Onlar bunu etdilər. Beynəlxalq ictimaiyyət bu seçkiləri tanımadığını söylədi. Ermənistan bu cür təxribatlara əl atmaq əvəzinə, münaqişənin sülh yolu ilə həllinə səy göstərməlidir. Biz bütün məsələlərdə olduğu kimi, Azərbaycanın işğal olunmuş torpaqları və Qarabağ məsələsində də qardaş Azərbaycanın yanındayıq. Bundan sonra da yanında olacağıq".

Göründüyü kimi, Türkiyənin XİN rəhbəri Minsk Qrupu həmsədrlərinin öz ölkəsinə dəvət edildiyini və onlardan Qarabağla bağlı danışıqlarda fəallığın tələb olunduğunu bildirib. Həmin vaxtdan sonra isə danışıqlar prosesində hər hansı dəyişiklik yoxdur. Bunu nə ilə izah etmək olar?

Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Türkiyə tərəfindən belə bir təşəbbüs olub: "Hətta Minsk Qrupu həmsədrlərinin Türkiyədə görüşü də oldu. Bu yeni bir format idi. Problemin həllinə yeni impuls verə bilərdi. Bilirsiniz ki, beynəlxalq təşkilatlar Türkiyəni Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prosesdən kənarda saxlayırlar. Aydındır ki, bu da ermənilərin istəyidir. Çünki onlar hesab edirlər ki, Türkiyə bu məsələdə birmənalı şəkildə Azərbaycanı müdafiə edəcək. Türkiyənin həmsədrlərlə təması ilkin olaraq belə bir təəssurat yaratdı ki, manea halqası Türkiyə tərəfindən dağıdılıb və həmin ölkə intensiv şəkildə Qarabağ danışıqlarında yaxından iştirak edəcək. Elə həmin vaxt Ermənistan rəhbərliyi tərəfindən bir neçə dəfə fikir səsləndirildi ki, Türkiyənin danışıqlar prosesinə buraxılması onlara sərf etmir. Belə görünür ki, ermənilər istəklərinə bu dəfə də nail oldular. Həmsədrləri məcbur edə bildilər ki, Türkiyənin təşəbbüsünü boğsunlar. Türkiyə də buna cavab olaraq son günlərdə daha da fəallaşıb. Minsk Qrupunun fəaliyyətini sərt şəkildə tənqid edir. Eyni zamanda, indiyə qədər olmayan açıq mətnlə Azərbaycanı müdafiə edir. Çavuşoğlu açıq bəyan etdi ki, Azərbaycan hansı həll yolunu seçsə, biz onun yanındayıq.




**Bu, açıq şəkildə Minsk Qrupu həmsədrlərinə xəbərdarlıqdır. Yəni demək istəyirlər ki, biz sakit yolla bu prosesə töhfə vermək istədik, imkan vermədiniz. Buna Türkiyənin haqqı var. Türkiyə Minsk Qrupunun üzvlərindən biridirsə, niyə nizamlanma prosesində kənarda qalmalıdır? Türkiyə bildirmək istəyir ki, sonda birmənalı olaraq Azərbaycana bu prosesdə açıq dəstəyini ifadə edəcək".**

***Məhəmmədəli QƏRİBLİ***

# "Amnesty İnternational"dan Azərbaycan barədə görünməmiş yalan - "hakimiyyəti tənqid edən jurnalisti dəlixanaya atırlar"...

***Yadigar Məmmədli:*** *"Son dövrlər "Amnesty İnternational" təşkilatı Azərbaycanla bağlı uydurma ittihamlarla çıxış edir"*

**"Amnesty İnternational" hüquq-müdafiə təşkilatı Azərbaycana yönəlik növbəti qərəzli bəyanat qəbul edib. Bəyanatda iddia edilir ki, guya hakimiyyəti tənqid etdiyinə görə bəzi müxalif düşüncəli şəxslər məcburi qaydada psixiatriya xəstəxanasına yerləşdirilib və daha sonra onlara naməlum narkotik maddələr vurulub.**




Bakıda psixiatriya xəstəxanasına yerləşdirilmiş müxalifətçi Aqil Hümbətov guya zorla ora aparılıb. Hakimiyyəti tənqid etdiyinə görə guya xəstəxanaya məcburi qaydada yerləşdirildikdən sonra ona naməlum narkotik maddələr vurublar. Bununla əlaqədar təşkilat psixiatriya xəstəxanasının baş həkimi Ağahəsən Rəsulova və Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanova etiraz məktubları yazmağa çağırıb. İddia edilir ki, guya aprel ayından xəstəxana administrasiyası A.Hümbətovun ailəsinə onunla görüşə imkan vermir. Mayın 12-də o, telefonla həyat yoldaşına şikayət edib ki, həkimlər onun iradəsinə zidd olaraq naməlum iynələr vururlar, buna görə də səhhəti pisləşib.

Göründüyü kimi, "Amnesty İnternational" təşkilatı uydurma siyasi motivli fikirlərə əsaslanaraq Azərbaycanı qaralamaqdadır. Düzdür, bu, sözügedən təşkilatın Azərbaycana yönəlik ilk qərəzli açıqlaması deyil. Hər dəfə müxtəlif ittihamlarla çıxış edirlər. Gah deyirlər Azərbaycanda media azadlığı məhdudlaşdırılır, siyasi azadlıqlar boğulur, gah da deyirlər ki, hökumət pandemiyanı bəhanə edib müxalif düşüncəli şəxsləri təqib edir. İndidə belə bir uydurma fikir irəli sürülüb ki, guya hakimiyyəti tənqid etdiyinə görə bəzi müxalif fikirli şəxslər məcburi qaydada psixiatriya xəstəxanasına yerləşdirilir.

Məsələyə münasibət bildirən Demokratik Jurnalistlər Liqasının rəhbəri, media eksperti Yadigar Məmmədlinin sözlərinə görə, bu təşkilatların məqsədi yalnız Azərbaycanı ləkələməkdir: "Artıq neçə vaxtdır dünya dövlətləri koronavirus pandemiyası ilə mübarizə aparırlar. Sözügedən bəladan qurtulmaq üçün yollar axtarılır. Ancaq çox təəssüflər olsun ki, insan haqlarının müdafiəsindən danışan bir sıra qurumlar belə vəziyyətdə müəyyən ölkələri qaralamaqla məşğuldurlar. Dəfələrlə bəyan etmişik ki, insan haqları adından danışan təşkilatlar öz təyinatlarına uyğun monitorinq aparmalıdırlar. Həmin monitorinqlərə uyğun hesabat hazırlamalıdırlar. Bu, istər fundamental insan haqları sahəsində olsun, istərsə də söz və mətbuat azadlığı sahəsində öz profilinə uyğun olmaldır. Ancaq çox təəssüf ki, insan haqlarından danışan bir sıra qurumlar bundan sui-istifadə edirlər. Hər vasitə ilə şəxsi maraqlarını, aldıqları sifarişləri önə çəkirlər. Belə qurumlardan biri də "Amnesty İnternational" təşkilatıdır. Bir vaxtlar sözügedən təşkilat insan hüquqlarının qorunması sahəsində hansısa işlər görüb.

*"...təşkilatın son bəyanatı tamamilə absurddur"*

Ancaq indi adıçəkilən təşkilat yalnız müəyyən dairələrin sifarişlərini həyata keçirməklə məşğuldur. Son dövrlər "Amnesty İnternational" təşkilatı Azərbaycanla bağlı uydurma ittihamlarla çıxış edir.

Təsadüfi deyil ki, artıq bu təşkilatın səsləndirdiyi ittihamlar ciddi qəbul olunmur, ritorika ilə qarşılanır. O baxımdan təşkilatın son bəyanatı tamamilə absurddur. Ölkədə siyasi fəaliyyətinə, müxalif düşüncəsinə görə kimsə məcburi qaydada psixiatriya xəstəxanasına yerləşdirilmir".

Bir daha aydın oldu ki, insan haqlarından danışan bəzi təşkilatların Azərbaycanla bağlı tənqidləri qərəzlidir və ən başlıcası, müəyyən dairələrin siyasi sifarişi ilə ortaya atılır.

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Bakıdan Qarabağda hərbi həllə tam hazırlıq xəbərdarlığı, İrəvan Türkiyənin illər öncə hazırladığı hücum planının şokunda...

**Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllinin uzanması məsələnin hərbi həll ehtimalını indi ötən dövrlərlə müqayisədə daha çox artırıb. Real vəziyyəti qiymətləndirən beynəlxalq ekspertlər də məsələyə bu prizmadan yanaşır, eləcə də Azərbaycan rəsmiləri artıq bu xüsusda işğalçıya daha konkret mesajlar verir.**

Rəsmi Bakı artıq ordunu hərəkətə gətirməyə hazır olduğunu gizlətmir və Ermənistan da daxil olmaqla, onun bütün hamilərinə xəbərdarlıq edir. Hələ cari ilin mart ayında Mərkəzi Komanda Məntəqəsində müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycan ordusunun rəhbər heyəti ilə xidməti müşavirədə bildirdi ki, şəxsi heyət torpaqlarımızın azad olunması məqsədilə düşmənə bütün istiqamətlərdə sarsıdıcı zərbələr endirməyə hazır olmalıdır:"Düşmən tərəfi anlamalıdır ki, bu dəfə görüləcək tədbirlər 2016-cı ilin aprelindən tam fərqli olacaq, vurulacaq zərər isə ümumilikdə onun siyasi, iqtisadi və hərbi tənəzzülünə gətirib çıxaracaq". Nazir müasir texniki vasitələrin tətbiqi ilə düşmən müdafiəsinin dərinliyində aktiv kəşfiyyat fəaliyyətinin davam etdirilməsi, döyüş növbətçiliyinin aparılması şəraitinin təkmilləşdirilməsi, şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi, döyüş və səfərbərlik hazırlığının yüksəldilməsi, hərbi qulluqçuların tibbi təminatı və bir sıra digər məsələlərlə bağlı vəzifəli şəxslərə konkret göstərişlər də verdi. Bunun ardınca aprel ayında cəbhəyanı ərazilərdə olarkən nazir yeni hərbi əməliyyatlara hazırlıq barədə növbəti göstərişini verdi. Bütün bunların Ermənistanda böyük ajiotaj doğurduğu bir vaxtda yerli telekanallara müsahibəsində Zakir Həsənovdan növbəti maraqlı açıqlama gəlib:"Mən müdafiə naziri olaraq prezident İlham Əliyevə, bütün Azərbaycan xalqına Azərbaycan ordusunun işğal olunmuş ərazilərin azad edilməsi tapşırığını yerinə yetirməyə hazır olduğunu məruzə edirəm". Düşmən üçün də kifayət qədər aydın mesajdır ki, Azərbaycan istənilən vaxt hərbi əməliyyatlara start verə bilər. Özü də bunun üçün həm Azərbaycan bütün lazımi imkanlara malikdir, həm də yaranmış geosiyasi şərait ölkəyə gərəkən imkanlar qazandırır. Ölkəmizin bu imkanları barədə də müdafiə naziri yenə açıq mesajlar verib: "Bizim düşməni darmadağın etmək üçün bütün imkanlarımız var və onlar bunu yaxşı bilir". O bildirib ki, Ermənistan tərəfinin Dağlıq Qarabağın ətrafında yerləşən və hazırda işğal altında olan rayonları bufer zona hesab etməsi də cəfəngiyyatdır:"Birincisi, bu absurd bəyanatdır. İkincisi, belə deyim, biz Naxçıvan Muxtar Respublikasını da unutmamalıyıq. Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevin göstərişləri və qayğısı nəticəsində Naxçıvanda ən güclü ordu birləşmələri formalaşdırılıb, ayrıca Əlahiddə Ümumqoşun Ordu yaradılıb. Onların raket sistemi, reaktiv yaylım atəş sistemi mövcuddur. Azərbaycan ordusunun yüksək döyüş hazırlığı, onun strateji mövqeyi bizdə əminlik yaradır ki, düşmənə heç bir bufer zonası da kömək etməyəcək". O, son 2 ildə Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində gərginliyin azalmasına baxmayaraq, ordumuzun bu vaxtı boşa verməadiyini vurğulayıb:"Dediyim kimi, biz bu vaxtdan öz işlərimiz üçün istifadə etdik. Digər tərəfdən, Ali Baş Komandanın son çıxışlarını hamımız dinləmişik. O deyib ki, bütün dünyada güc ön plana çıxır. Yəni biz ordumuzu gücləndiririk və ordumuzdan bu məsələnin həlli üçün istifadə edəcəyik. Dövlət başçısı öz çıxışlarında tam dəqiqliklə bizim necə hərəkət edəcəyimizi müəyyənləşdirib. Kompleks tədbirlər: bu həm siyasi, həm iqtisadi, həm də hərbi təzyiqdir. Lazım olan anda - və o an, ümid edirəm, yaxın vaxtda gələcək - biz güc tətbiq edəcəyik. Biz bunu gizlətmirik. Görünür, danışıqlar prosesinə ümid hələ ki, tükənməyib. Düzdür, mən danışıqlarda iştirak etmirəm, amma belə düşünürəm. Mənim qarşımda duran vəzifə hazır olmaq və istənilən vaxt döyüşə başlamaqdır".

Beləliklə, bu açıqlamalardan aydın görünür ki, Azərbaycan güc metodunu istənilən vaxt işə salmağa hazırdır. Qeyd olunduğu kimi məsələnin güc yolu ilə həlli üçün Azərbaycan bütün resurslara sahibdir. Elə beynəlxalq şərait də buna imkan verir. Məsələn, Rusiyanın proseslərə baxışı indi xeyli dəyişib və yeni müharibə olacağı təqdirdə Moskva daha çox neytral qalmağı üstün tutur. Eləcə də qardaş türkiyənin bu dəfə daha fəal mövqe sərgiləməsi proqnozlaşdırılır. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu da Antalyada keçirdiyi mətbuat konfransında bunun yenidən anonsunu verib:"Azərbaycan torpaqlarının iyirmi faizi Ermənistan tərəfindən işğal olunub. Qarabağ problemi və işğal faktının aradan qaldırılması Azərbaycanın ərazi bütövlüyü və sərhəd toxunulmazlığı çərçivəsində həllini tapmalıdır". Beynəlxalq təşkilatların Dağlıq Qarabağ problemi ilə bağlı qərarlarını xatırladan nazir bildirib ki, ATƏT-in Minsk Qrupu münaqişənin həlli istiqamətində qətiyyət göstərməyib:"Azərbaycan konstruktiv mövqe göstərsə belə, Ermənistan buna anlayışlı yanaşmadı. Qarabağda saxta seçkilər keçirdilər. Hərçənd, beynəlxalq ictimaiyyət bu seçkiləri tanımadı. Ermənistanın bu cür təxribatlara son qoymaq əvəzinə, münaqişənin sülh yolu ilə həllinə səy göstərməsi lazımdır. Biz bütün məsələlərdə olduğu kimi, Azərbaycanın işğal altındakı torpaqları və Qarabağ məsələsində də qardaş Azərbaycanın yanındayıq. Bundan sonra da yanında olacağıq". Ermənistanın "Iragir.am" nəşri yazır ki, Türkiyə bu dəfə Azərbaycana yardım məsələsində daha fəal olacaq:"Unutmaq lazım deyil ki, daim Azərbaycanın yanında yer alan Türkiyənin 2000-ci ildən bəri Ermənistana hücum planları hazırladığı da ortaya çıxıb. Ermənistan üçün Türkiyə siyasəti və Türkiyə dövlətinin strateji planları həyati təhlükəsizlik məsələsidir. Bu mənada Ermənistan, Türkiyə Baş Qərargahında planların olub-olmamasından asılı olmayaraq, mümkün risqləri zərərsizləşdirmək üçün hər gün çox çalışmalıdır. Bu plan yoxdursa, bu, erməni təhlükəsizliyi üçün Türkiyə təhdidi risqini azaltmır. Bu, şərti olaraq iki yerə bölünə biləcək Ermənistan dövlət strategiyasının əsas məsələlərindən biridir. Əsas strateji vəzifə müdafiə sahəsində özünütəminliyini qorumaq və xarici müdafiə mənbələrinin dəstəyi istiqamətində çalışmaqdır.

Bu barədə iki səhv fikir mövcuddur. Əvvəla, bu konsepsiyanın keçmiş hökumətlə siyasi səbəblərə görə və ya hərbi-siyasi uyğunsuzluqla eyniləşdirilməsi, səbəb kimi keçmiş müdafiə naziri Vigen Sarkisyanın bu konsepsiya barədə danışmasıdır. Digər bir yanlış təsəvvür və ya səhv düşüncə millət-ordu anlayışının "kazarma vəziyyəti" ilə eyniləşdirilməsidir. Bununla yanaşı, millət-ordu anlayışı hərbi-siyasi və mülki əsasda bir-birini tamamlayan bir mexanizm yaratmağı və nəticədə dövlətin qlobal rəqabət qabiliyyətinin və müdafiə qabiliyyətlərinin dinamik şəkildə böyüməsini şərtləndirir. Ermənistanın əleyhdarlarına, Ermənistana qarşı hücum niyyətləri olduqda, ən azı 3 milyon insandan ibarət bir müdafiə mexanizmi ilə qarşılaşmalı olduqlarını anlamağa imkan verən bir mexanizmdir. Bu vacibdir, çünki Ermənistanın təhlükəsizlik mühiti üçün birbaşa təhdidlər Ermənistanın imkanlarından dəfələrlə çoxdur. Hazırda yayılan türk planı haqqında məlumat heç də yeni deyil, artıq 2019-cu ilin noyabrında da bir dəfə bu barədə məlumat yayılmışdı. İndi Ermənistandakı mövcud qondarma şiddətli daxili hadisələrlə yanaşı yenidən bu informasiyanın yayılması məsələsi daha çox maraq cəlb edir. Burada bir anlığa erməni cəmiyyətinin şüurunun Türkiyənin təhdidinə necə reaksiya verdiyini diqqətə çatdırmaq yerinə düşər. Bu gün, tamamilə olmasa da, böyük əksəriyyət belə düşünür ki, Türkiyə müdaxilə anını gözləyir və bunun qarşısını yalnız Rusiya ala bilər. Müsbət və mənfi tərəfləri ilə bağlı Rusiyanın rolu ümumilikdə Ermənistan dövlətinin hərbi-siyasi gələcəyi kontekstində ayrı bir müzakirə məsələdir. Bəs erməni domenində olan internet və informasiya sferasında yeni bir şey olmayan türk təhlükəsi ilə bağlı məlumatlar niyə hazırda yayılır? Bütün bunlar, Ermənistandakı hadisələrin əslində Rusiyanın erməni daxili həyatına təsirini azaltmağa yönəldiyi bir vaxtda baş verir. Rusiya Ermənistandan üz döndərməyə hazırlaşır və onun Azərbaycanla daha çox yaxınlaşması müşahidə olunur. Bu vəziyyətdə Azərbaycanın Qarabağ məsələsini hərbi müstəvidə çözmək niyyətini daha tez-tez səsləndirməsi də təsadüfi deyil. Özü üçün əlverişli məqamda Bakı mütləq gücə əl atacaq". Beləliklə, ermənilər də görür ki, Azərbaycanın Qarabağ münaqişəsini güc yolu ilə həll etməsinə dünya, o cümlədən Rusiya hansısa ciddi reaksiya verməyəcək. Rusiya ilə Ermənistan arasında münasibətlərin pisləşməsi Qarabağ münaqişəsi ətrafında duruma getdikcə daha çox təsir edir. Ermənistanın "Politekonomika" tədqiqat institutunun rəhbəri Andranik Tevanyan da bunu açıq etiraf edir. Tevanyan qeyd edib ki, Ermənistanın ikinci prezidenti Robert Köçəryan və "Çiçəklənən Ermənistan" partiyasının lideri Qaqik Tsarukyan Ermənistan-Rusiya münasibətlərində böyük təsirə malik olub, bu işlər siyasi, əslində həm də geosiyasi komponentlidir:"Nikol Paşinyanın bu şəxslərə qarşı mövqeyi Moskvanı artıq daha çox qəzəbləndirir. Moskvanın qəzəbi isə çox istiqamətlər üzrə özünü göstərəcək. Bura Qarabağ cəbhəsində Ermənistan üçün olacaq xoşagəlməz hallar da daxildir". Bütün bunlar, güc yolu ilə olsa belə, Qarabağ məsələsi ətrafında yaxın tezlikdə yeniliklərin olmasını istisna etmir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Manat yenə regionda ən dayanıqlı valyuta oldu

**Azərbaycana qonşu ölkələrdə maliyyə sferasında yenidən maraqlı proseslər müşahidə olunur. Onların Azərbaycanın əsas ticarət tərəfdaşları olması nəzərə alındıqda baş vernlərin ölkəmizdə də diqqətlə izlənilməsi təbii hal sayılır. Hazırda İran və Türkiyədə yaşananlar qeyd edilən baxımdan daha çox maraq doğurur.**

Adları çəkilən ölkələrdə milli valyutalar sürətlə dəyərdən düşür. İranda bir ABŞ dolları artıq 19 min tüməni keçir. Bir avro 21 min 325 tümənə mübadilə edilir. Azərbaycan manatı da İranda bahalaşıb. Xatırladaq ki, cari ilin yanvar ayında bir dollar 13 min 350 tümənə mübadilə olunub. Indi qeydə alınan göstərcilər onu göstərir ki, İranın milli valyutası bir dollara nisbətdə 42 faiz dəyərdən düşüb. ABŞ İranın nüvə proqarmı ilə bağlı Əhatəli Razılaşma Müqaviləsindən çıxandan sonra ötən 25 ay ərzində tümən ABŞ dollarına nisbətdə 190 faiz ucuzlaşıb. İran Mərkəzi Bankının direktoru Əbdülnasir Himməti tümənin ucuzlaşmasını koronavirusun yayılması, neftin qiymətinin ucuzlaşması və İslam Respublikasının maliyyə tədbiləri üzrə hədəf qrupundan (FATF) çıxarılması ilə əsaslandırıb.

Türkiyədə də, belə demək olarsa, valyuta böhranı yaşanır. Məsələ burasındadır ki, Türkiyədə ixracın kəskin azalması və turizmin qapalı olması valyuta böhranına gətirib çıxarıb. Amma onu da qeyd edək ki, koronavirus pandemiyası ilə bağlı ikinci dalğanın gəlməsi narahatlığı, türk lirəsi də daxil olmaqla. bir çox inkişaf etməkdə olan ölkələrin valyutalarına təzyiq göstərir. Türkiyə timsalında bu hal özünü qabarıq göstərir. Çünki Türkiyənin əsas valyuta daxilolmaları həm ixracatdan, həm də turizmdən idi. Məsələn, ötən il Türkiyəyə turizmdən təxminən 38 milyard dollara yaxın valyuta daxil olmuşdu. Turizmin gətirdiyi valyuta tədiyyə balansında kifayət qədər müsbət rol oynayırdı. Eyni zamanda, əsasən yüngül sənaye və avtomobil ixracından da ölkəyə valyuta gəlirdi. Amma son zamanlar Türkiyənin ixracatında ciddi azalmalar var və turizm bağlıdır. İxracda Avropa İttifaqı istiqamətində təxminən 25 faizə yaxın azalma var və bu da valyuta daxilolmalarını kifayət qədər zəiflədib. Bu isə tədiyyə balansında mənfi saldonun yaranmasına səbəb olur. Bu durumda Türkiyədə valyuta daxilolmaları azalırsa, valyutaya ehtiyac azalmır, çünki təkcə özəl sektorun xarici borcu 187 milyard dollardır. Hər ay təxminən 10-12 milyard dollara yaxın məbləğ özəl sektorun xarici borcunun qaytarılmasına getməlidir. Yəni bu valyuta ehtiyatı yaranmalıdır. Nəticədə Türkiyə bir çox ölkələrə svop, yəni lirə əvəzinə xarici valyutaların alınması və yaxud Türkiyə aktivləri hesabına xarici valyuta alınması razılaşmaları təklif edib. Yəni həmin ölkələrlə svop müqavilələri bağlansın və ölkəyə lazım olan həcmdə valyutanın gətirilməsi təmin edilsin. İndiki halda baş verənlər lirəni dəyərdən salır. Rusiyada da son günlərdə rublun məzənnəsində qeyri-sabitlik qeydə alınır. Gürcüstan larisi də turizmin bağlı olması səbəbindən dollara nisbətdə dəyər itirir.




Bütün bunlar qonşu ölkələrdə milli valyutaların dəyər itirməkdə olduğunu göstərir və bu ölkələr, yuxarıda qeyd olunduğu kimi, həm də Azərbaycanın əsas ticarət tərəfdaşları sırasında yer alır. Amma bu ölkələrdən fərqli olaraq, manat dollar və digər xarici valyutalara nisbətdə dayanıqlılıq nümayiş etdirir. Son valyuta hərraclarına nəzər saldıqda isə dollara tələbin azalan xətt üzrə getməsi də müşahidə olunur.

Hadisələrin inkişaf axarı göstərir ki, bundan sonra da regionda ən dayanıqlı valyuta qismində manat çıxış edəcək. Azərbaycanın iqtisadi və valyuta siyasəti manatın dayanaqlı həddə qalmaqda davam edəcəyini göstərir. İdxaldan asılılığın azalması, ixracın artımı, neftin qiymətinin tədricən yüksəlməsi ilə əlaqədar manatın mövqeyini bundan sonra da qoruması gözlənilir. Digər ekspertlər də bu qənaətdədir ki, böyük valyuta ehtiyatları və Neft Fondunun cari il ərzində təxminən 5 milyard dolları manata çevirmək öhdəliyi də milli valyutanın sabitliyinə təminatdır. Digər tərəfdən, valyuta ehtiyatlarında idarəçiliklə bağlı Azərbaycanın tutduğu mövqe də prosesə müsbət təsir edir və risqli əməliyyatlardan, demək olar ki, istifadə olunmur. Bu da manata təsir edən amillərdəndir. Ekspertlər bildirir ki, Dövlət Neft Fondu aşağı gəlirli, amma dayanıqlı investisiyalara üstünlük verir. Fond qiymətli kağızlara daha çox yatırım edib. Özü də elə qiymətli kağızlara ki, onlar dayanıqlı, belə demək mümkünsə, itirmə təhlükəsi sıfıra yaxın olan investisiyalar sayılır. Bu konservativ yanaşma ilə həm də əlində olan, yığılan vəsaitin daha çox qorunmasına xidmət edir. İndilikdə hesab edilir ki, görülən tədbirlər nəticəsində valyuta ehtiyatlarının artımı davam edəcək və bu da manatın məzənnəsinin sabitliyi baxımından mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda, ölkəyə yeni valyuta axını da proqnozlaşdırılır. Bunun ümdə səbəbi qeyri-neft sektoru üzrə ixracın artması, neft qiymətlərinin qeyd edildiyi kimi tədricən yüksəlməsidir. Digər tərəfdən, tezliklə "Cənub Qaz Dəhlizi" çərçivəsində Avropa bazarına Azərbaycan təbii qazının nəqli nəzərdə tutulur. İlkin mərhələdə Avropa bazarına 10 milyard kubmetr Azərbaycan qazı nəql olunacaq. TANAP-la Türkiyəyə nəql edilən qaz həcmləri isə 6 milyard kubmetrə çatacaq ki, bu da ölkəyə daxil olan valyutanın həcmini əhəmiyyətli dərəcədə artıracaq. Ölkə üzərindən yükdaşımaların artımı da artıq burada öz sözünü deyir. Bütün bunlar qarşıdakı dövr ərzində də manatın dayanıqlığını təmin edən başlıca faktorlardan sayılır.

***Ramil QULİYEV***

# Yoluxmaların sayı gündəlik artırsa... - Daha sərt qaydalara keçid, maskasızların cərimələnməsi... necə olar?

**Artıq bir müddətdir Azərbaycanda ictimai nəqliyyatda, dövlət xidməti binalarında, bütün iaşə, alış-veriş mərkəzlərində, qapalı məkanlarda tibbi maskadan istifadə etmək məcburidir. Bunun üçün cərimələr də tətbiq edilib.**

Maska taxmamağa görə fiziki şəxslər 50, vəzifəli şəxslər 100, hüquqi şəxslər isə 200 manat cərimə ödəyəcəklər. Təkrar aşkarlanma olarsa, fiziki şəxslər 100, vəzifəli şəxslər 200, hüquqi şəxslər isə 400 manat ödəyəcəklər.

Lakin yenə də adları sadalanan ərazilərdə bir çox vətəndaşın öz üzərinə düşən sosial məsuliyyəti dərk etməyərək, maska taxmadığının şahidi oluruq. İnsanların təhlükəsizlik tədbirlərinə riayət etməməsi nəticəsində koronavirusa yoluxanların sayı günü-gündən artır. Qeyd edək ki, Azərbaycanda COVID-19-a yoluxanların sayı son bir ay yarım içərisində doqquz dəfə artıb və on mini keçib. Tək iyunun 21-də ölkədə virusa yoluxma üzrə antirekord qeydə alındı. Belə ki, həmin gün ölkədə 491 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 283 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 6 nəfər vəfat edib.

Məlumat üçün bildirək ki, indiyədək ölkədə, ümumilikdə, 12 729 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 6 799 nəfər müalicə olunaraq sağalıb, 154 nəfər vəfat edib, 5 776 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.

Bəs nə etmək lazımdır ki, vətəndaşlar üzərlərinə düşən məsuliyyəti dərk etsinlər, karantin rejimi qaydalarının onların özlərinin, ətrafdakıların təhlükəsizliyi üçün tətbiq edildiyini düşünərək sosial məsafəni gözləsinlər, tibbi maskadan mütəmadi olaraq istifadə etməyi bacarsınlar?

Azərbaycanın baş infeksionisti, Nazirlər Kabineti yanında Operativ Qərargahın üzvü Cəlal İsayev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, insanların səhlənkarlığı və xaricdə yaşayan azərbaycanlıların bir hissəsinin Vətənə qayıtması koronavirusa yoluxanların sayının artmasına səbəb olub. Hətta ölkədə xüsusi karantin rejimi qaydalarının yumşaldılmasından sonra virusun guya mövcud olmadığına inananlar artmağa başlayıb: "Çünki hələ də xəstəliyin siyasi oyun olduğunu düşünənlər var. Mən onları dar düşüncəli insanlar sayıram. Belə siyasi oyun olmaz. Axı bütün dünyada virus alovlanıb. Yəni inkişaf etmiş bu qədər ölkənin rəhbərləri səhv edirlər?! Hətta deyirlər ki, guya həkimlər ölən şəxsin qohumlarına virusdan vəfat etdiyini yazmaq üçün pul təklif edirlər. Həkimlərin bu qədər çox pulu var? Vicdan bu qədər itirilib?

Hər gün gözümüzün qarşısında çox sayda insanın virusa yoluxduğunu, əziyyət çəkdiyini və dünyasını dəyişdiyini görürük. Əlimizdən gələni edirik ki, insanlar virusa yoluxmasınlar. Axı nə qədər demək olar ki, sosial məsafəni gözləyin, arada 2 metrlik məsafə saxlayın, zərurət olmadığı təqdirdə qapalı məkanlara getməyin, gigiyena qaydalarına əməl edin, yaxud qoruyucu tibbi maskalardan istifadə edin".

Həmsöhbətimiz onu da əlavə etdi ki, ictimai nəqliyyatda qoruyucu maskalardan istifadənin vacibliyi dəfələrlə qeyd edilib, ancaq buna əməl edən çox az adam var. Pandemiyanın başlanğıcında virusun sürətlə yayılmasının qarşısı alındı. Amma bu gün daxili yoluxmaların sayında kifayət qədər artım var. Hər kəs infeksiyaya qarşı birgə mübarizə aparmalıdır, öz üzərinə düşəni etməlidir.



**Rüfət Quliyev:** *"Vətəndaşlar, birmənalı olaraq, sosial məsafə qaydalarına, tibbi ləvazimatlardan istifadəyə mütləq riayət etməlidirlər"*

**Cəlal İsayev:** *"İnsanların səhlənkarlığı nəticəsində bu gün koronavirusdan əziyyət çəkənlərin sayı artır"*

**Adil Qeybulla:** *"Yoluxmaların sayında artımın əsas səbəbi insanların davranışıdır"*

Millət vəkili Rüfət Quliyev bildirdi ki, dünyada tüğyan edən koronavirus pandemiyası Azərbaycanda da var və bu çağırılmamış qonaq dünyanın əksər nöqtəsini əhatə edib. COVID-19 virusuna qarşı mübarizə məqsədilə ölkə başçısı İlham Əliyev tərəfindən təsirli və davamlı tədbirlər həyata keçirilib: "Bütün bunlara baxmayaraq, Azərbaycan vətəndaşlarının üzərinə çox böyük vəzifələr düşüb. İlkin pandemiya dövrü Azərbaycanda yaşananda hakimiyyət bütün lazım olan tədbirləri həyata keçirib. Karantin qaydaları yumşalmağa başlayandan sonra insanlarda belə bir təəssürat yaranmağa başladı ki, artıq koronavirus keçmişdə qaldı. Bəziləri düşünürlər ki, ümumiyyətlə, belə bir xəstəlik yoxdur. Bu, təəssüfləndirici haldır. Hazırda inkişaf etmiş ölkələrin də durumu iflic vəziyyətdədir. Buna görə Azərbaycan vətəndaşı sosial məsuliyyətini dərk etməlidir.

Söhbət vətəndaşların həyati təhlükəsindən gedir. Bütün bu tədbirlər vətəndaşların sağlam və salamat qalması üçün görülür. Vətəndaşlar maska taxmaqla həm özlərini, həm ailə üzvlərini, həm də qohumlarını qorumuş olurlar. Bir insan özü özünü qorumur, axı o, tək özünə görə deyil, həm də ailə üzvlərinin salamat qalması üçün məsuliyyət daşıyır. Vətəndaşlar, birmənalı olaraq, sosial məsafə qaydalarına, tibbi ləvazimatlardan istifadəyə mütləq riayət etməlidirlər".

Professor, tibbi ekspert Adil Qeybulla bildirdi ki, yoluxmaların sayında artımın əsas səbəbi insanların davranışıdır: "30 kvadratmetrlik bir mağazaya 20 adam girir, satıcı maskasız, camaat maskasız, girişdə dezinfeksiyaedici məhlul yox, paltarlara çox adam əl vurur. Azərbaycanda yoluxanların sayı daha çoxdur və yaxın həftələrdə bu aşkara çıxacaq. İnsanlar öz sağlamlıqlarına biganə yanaşırlar".

**Həmsöhbətimiz hesab edir ki, ictimai nəqliyyatda vətəndaşlara tibbi maskalar pulsuz paylanmalıdır: "Yaxşı olardı ki, ictimai nəqliyyatda, avtobuslarda tibbi maska pulsuz olaraq paylansın. Bir maskanın dəyəri o qədər də böyük deyil. Hesab edirəm ki, təhlükəni azaltmaq üçün, insanları maska taxmağa daha çox cəlb etmək üçün bunu həyata keçirmək mümkündür. Yoxsa, qeyd etdiyim kimi, vəziyyət daha da pisləşəcək".**

***Günel CƏLİLOVA***

**Koronavirus pandemiyası ölkəmizi də ciddi təhdid edir. Bir müddət əvvələ qədər koronavirusa yalnız sadə Azərbaycan vətəndaşları yoluxurdularsa, son həftələr yoluxanlar sırasına iri və kiçik dövlət məmurları, millət vəkilləri də daxil olublar.**

# Məmurlar və deputatlar hansı şəraitdə virusa yoluxurlar...




## *Adil Qeybulla: "Bəziləri ailədaxili ziyafətlərdə iştirak edir, digərləri isə restoranlara gedirlər"*

Onlardan başqa, bu siyahıda tanınmış sənət adamları, həkimlər, ictimai qurum təmsilçilərinin də adları var. Cəmiyyətin bir neçə tanınmış simasının da virusdan əziyyət çəkdiyi məlumdur.

Bir aydan artıqdır ki, Şamaxı rayon icra başçısının və müavininin, Cəlilabad, Samux və digər rayonların icra başçılarının müavinlərinin, bəzi məktəb direktorlarının koronavirusa yoluxması barədə xəbərlər yayılmaqdadır. Bu günlərdə Azərbaycan Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyevanın, millət vəkili Sahib Alıyevin və başqalarının da koronavirusa yoluxduğu rəsmən təsdiqlənib.

Bildiyimiz kimi, pandemiya ilə əlaqədar olaraq dövlət qurumlarında vətəndaşlarla canlı ünsiyyət mövcud deyil, eyni zamanda da parlament üzvləri də seçicilərlə ancaq virtual olaraq, onlayn əlaqə saxlayırlar.

Bəs bu halda, məmurlar və deputatlar virusa hansı yolla yoluxa bilərlər?

*"Məmurların və deputatların koronavirusa yoluxması da bu səbəbdən..."*

Tanınmış tibb mütəxəssisi, professor Adil Qeybulla bizimlə söhbətində qeyd etdi ki, məmurlar da, deputatlar da digər vətəndaşlar kimi cəmiyyətin bir üzvüdürlər. "Məmurlar da, deputatlar da bu cəmiyyətin bir üzvüdürlər, onların da şəxsi həyatı var, ailə üzvləri və digər şəxslərlə ünsiyyətdə olurlar. Bəziləri ailədaxili ziyafətlərdə iştirak edir, digərləri isə restoranlara gedirlər.

Məmurların və deputatların koronavirusa yoluxması da bu səbəbdən mümkündür. Bilirsiniz ki, hazırda respublika ərazisində koronavirusa yoluxanların sayı artmaqdadır və bu, cəmiyyətimizin reallığıdır. Məmurlar da, deputatlar da cəmiyyətin bir üzvü kimi virusa yoluxublar. Başqa ölkələrdə baş nazirlər virusa yoluxublar. Yəni virus varsa, ona yoluxma halları da var" - deyə A.Qeybulla qeyd etdi.

***İradə SARIYEVA***

**Koronavirusa yoluxma və ölüm sayı getdikcə artır. Dünyada COVID-19 infeksiyasına yoluxanların ümumi sayı 8 milyonu ötüb, yarım milyona yaxın insan pandemiyanın qurbanı olub. Son günlər Azərbaycanda da yoluxma sayında artım müşahidə edilir.**

# Tanınmış azərbaycanlıların koronavirusa yoluxması virus inamsızlarına növbəti mesajdır...




## *Jalə Əliyeva: "Tanınmışların, məşhurların, tanıdıqlarımızın koronavirusa yoluxması, bu bəladan əziyyət çəkməsi artıq hamımızı ciddi şəkildə düşündürməlidir"*

İndiyədək ölkəmizdə 10 mindən çox yoluxma halı aşkar edilib.

Təəssüf ki, digər ölkələrdə olduğu kimi, Azərbaycanda virusa yoluxan və dünyasını dəyişənlər arasında tanınmış insanlar da var. Onların arasında millət vəkili, siyasətçi, ziyalı, şair, şou-biznes təmsilçisi də var. Koronavirus elə bir xəstəlikdir ki, sosial məsafə saxlamayan hər bir kəsə yoluxur. Qeyd etdiyimiz kimi, yaşından, vəzifəsindən asılı olmayaraq, təhlükəsizlik qaydalarına riayət etməyən hər kəs koronavirusa yoluxa bilər.

Azərbaycanda koronavirusa yoluxmuş tanınmış şəxslərin siyahısını təqdim edirik:

Nicat Əzimli - Mərkəzi Neftçilər Xəstəxanasının həkimi, Bəhram Bağırzadə - Əməkdar artist, Müstəqim Məmmədov - Tərtər Rayon İcra Hakimiyyətinin başçısı, Sahib Alıyev - millət vəkili, Məmməd Məmmədov - Tovuz Rayon İcra Hakimiyyətinin başçısı,Şəhriyar Del Gerani - şair, Barat Bayramov - həkim, Kamal Abdullayev - məşhur uroloq həkim, Yasin Həzirə - aktyor, Şəfəq Əliyeva - Əməkdar artist, Sərvər Əliyev - Əməkdar artist, Nadir Qasımov - Azərbaycanın tanınmış futbol məşqçisi, Aydan Salahova - məşhur rəssam Tahir Salahovun qızı, rəssam-heykəltəraş, Fərəh Əliyeva - Azərbaycan Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, Bayram Əliyev - Pauerliftinq üzrə üçqat Dünya və üçqat Avropa çempionu, Dövlət Gömrük Komitəsinin Bakı Baş Gömrük İdarəsinin mayoru, Şahin Abbasov - ATV-nin Almaniya üzrə müxbiri, Anar Cəfərsoy - idman jurnalisti, Xaliq Rəşidoğlu - jurnalist, Rövşən Tağıyev - Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin sədri, Ukrayna Millətlər Assambleyasının rəhbəri, Mirvari Fətəliyeva - Azərbaycanın Fransadakı diaspor rəhbərlərindən biri, Paris-Azərbaycan Evinin rəhbəri.

Koronavirus səbəbindən vəfat edənlər isə…

Fikrət Namazov - tanınmış həkim-onkoloq, Azərbaycan Tibb Universitetinin Onkologiya kafedrasının dosenti, Mehman Hüseynov - tanınmış travmatoloq-həkim, Cəmşid Abbasov - Gəncə Şəhər 3 nömrəli Təcili Tibbi Yardım Stansiyasının həkimi, Zakir Xəlilov - Azərbaycanda Demokratiya və Rifah

*"Nəyə görə bəzilərinin məsuliyyətsizliyi üzündən bu qədər görülən işlər, çəkilən zəhmətlər, əməklər hədər getməlidir?"*

(ADR) Hərəkatının Nəsimi rayon təşkilatının İdarə Heyətinin üzvü, həkim, Teymur Mustafayev - Xalq artisti, Fərman Bağırov - Tanınmış fotojurnalist, Qəzənfər Əliyev - Samux rayon icra başçısının müavini.

Onu da bildirək ki, bəzi şəxsləri hələ də koronavirusun varlığına şübhə ilə yanaşırlar. Onların verdikləri sual isə "niyə tanınmışlar bu xəstəliyə yoluxmur" idi. Ancaq, göründüyü kimi, COVID-19 infeksiyasına yoluxanlar arasında tanınmış şəxslər də var.

Millət vəkili Jalə Əliyeva bildirdi ki, hər gün bu bəlanın, bu təhlükənin aradan qaldırılması istiqamətində növbəti, yeni addımlar atılır: "İndi bu addımların üzərindən nəyə görə bir andaca xətt çəkilməlidir? Nəyə görə bəzilərinin məsuliyyətsizliyi üzündən bu qədər görülən işlər, çəkilən zəhmətlər, əməklər hədər getməlidir?

Heç nəyə fikir verməmədən, karantin tələblərinə əməl etmədən belə bir addıma yol vermək gerçəkdən yolverilməz və qəbuledilməzdir. Qayda-qanun hamı üçündür və eynidir. Kimsə özünü əlahiddə apara, hesab edə bilməz. Özünüz də son 3-4 gündə açıqlanan və böyük həyəcan doğuran statistikanı görürsünüz. Yenə də artım, yenə də çoxalan ölüm halları. Tanınmışların, məşhurların, tanıdıqlarımızın koronavirusa yoluxması, bu bəladan əziyyət çəkməsi artıq hamımızı ciddi şəkildə düşündürməlidir. Dəyərli ziyalımız, hamımızın sevimlisi Bəhram Bağırzadə artıq neçə gündür ağır vəziyyətdədir, koronavirus bəlasından əziyyət çəkir, onun sağlamlıq durumu birbaşa ölkə Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəxsi nəzarətindədir.

Bunun özü məsuliyyətsizlik, laqeydlik, biganəlik göstərən bəzi vətəndaşlarımıza nəsə demirmi? Onlar məsələnin, bəlanın ciddiyyətini anlamırlarmı? Niyə özlərinin, başqalarının həyatını "sevə-sevə" risqə atırlar? Tibbi maskalardan və əlcəklərdən istifadə etmək, sosial məsafəni gözləmək, karantin şərtlərinə və tələblərinə əməl etmək bu qədərmi çətindir?".

***Günel CƏLİLOVA***

# Cəmi bir gündə karantin qaydalarını pozan 1572 nəfərin cərimələnməsi - ekspertlər güzəştləri qəti yolverilməz sayır...

***Şəmsəddin Əliyev:** "Bu metod bəlkə də qanunları pozmağı adətə çevirmiş vətəndaşları..."*

**Bildiyimiz kimi, iyunun 21-dən iyulun 5-dək ölkə ərazisində sərt karantin rejimi həyata keçirilir. Karantin rejiminin qaydalarına hər bir vətəndaş əməl etməli olduğu halda, yenə də ciddi qayda pozuntusuna rast gəlinir. İnsanlar sanki bilərəkdən karantin qaydalarını pozurlar.**

Bilirik ki, artıq şəhərimizin giriş və çıxışlarında, eləcə də müəyyən yerlərdə postlar quraşdırılıb və karantin rejiminin qaydalarına uyğun olaraq vətəndaşların yoxlanılması həyata keçirilir. Artıq iki gündür sərt karantin rejimi davam edir və bu iki gündə sərt karantin rejimini pozan 1 572 nəfər cərimələnib.

Belə ki, Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) sərt karantin rejimini pozaraq Bakıya girişə və çıxışa cəhd edən sürücülərin və cərimələnən şəxslərin sayını açıqlayıb.

BDYPİ-nin şöbə rəisi, polkovnik Kamran Əliyev mətbuata bildirib ki, iyunun 21-i saat 00:00-dan etibarən ölkə ərazisində sərt karantin rejiminin tələblərinə riayət etməyərək, İnzibati Xətalar Məcəlləsinin (İXM) 211.1-ci maddəsinin tələbini pozduğuna görə 1 440 nəfər, İXM-nin 211.2-ci maddəsinin tələbini pozduğuna görə 132 nəfər olmaqla, ümumilikdə, 1 572 nəfər inzibati məsuliyyətə cəlb edilib.

O qeyd edib ki, Ələt-Astara, Bakı-Şamaxı və Bakı-Quba yollarında qurulan karantin postlarında hərəkətinə icazə verilməyən 900 nəqliyyat vasitəsinin sürücüsü aşkarlanaraq geri qaytarılıb.

Qeyd edək ki, Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Yevlax, Masallı, Cəlilabad şəhərlərinin və Abşeron rayonu ərazisində xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə qərar qəbul edilib.

Qərara əsasən, sərt karantin rejimi 21 iyun saat 00:00-dan 5 iyul saat 06:00-dək davam edəcək.



*"Sərt karantin rejiminin qaydalarını pozan insanların şəxsiyyəti, ad-soyadı, ev ünvanı telekanalda işıqlandırılmalıdır"*

"Polisə Dəstək" İctimai Birliyinin sədri, tanınmış hüquqşünas Şəmsəddin Əliyev məsələni şərh edərkən "Bakı-Xəbər"ə bildirdi ki, sərt karantin rejimini pozan insanların bu yoldan çəkindirilməsi üçün alternativ variantlardan istifadə edilməlidir. Ş.Əliyev hesab edir ki, inzibati məsuliyyətə cəlb edilən 1 572 nəfərin və onlardan sonra bu hala yol verən digər vətəndaşların adları, yaşadıqları ünvan və iş yerləri KİV-də işıqlandırılmalı, onların çalışdıqları müəssisələrə sorğular göndərilməlidir. Cərimələnmələrin effekt vermədiyini deyən Ş.Əliyevin sözlərinə görə, bələdiyyələr, icra hakimiyyəti orqanları, şirkət rəhbərləri, idarə və müəssisələrin direktorları bu halla mübarizəyə cəlb edilməlidirlər. "Vətəndaşların bu davranışlarını görüb təəccüblənirəm ki, onlar nə üçün məsuliyyətsizliyə yol verirlər. Baxıram ki, müsəlman cəmiyyəti qanunu pozmağa bir qədər meyllidir. Nə qədər ki, qanunun və hüququn aliliyini dərk edə, onun mahiyyətini özümüz üçün əsas olaraq qəbul edə bilmiriksə, bu belə də davam edəcək. İndiki halda, pandemiya ilə bağlı mövcud olan bu ağır rejimdə vətəndaşlar qayda-qanunlara əməl etmirlərsə, qanunun qarşısında fərağət dayanmırlarsa və bunu bilərəkdən edirlərsə, burada cəzanın sərtləşdirilməsi də kömək etməyəcək. Yenə nəyin bahasına olursa-olsun, o insanlar bayıra çıxacaqlar, qanunu pozacaqlar. KİV-də, xüsusən də televiziyada bu istiqamətdə işlər görülməlidir. Yəni sərt karantin rejiminin qaydalarını pozan insanların şəxsiyyəti, ad-soyadı, ev ünvanı telekanalda işıqlandırılmalıdır. Biz indi də bu metoddan istifadə edə bilərik. Bu metod bəlkə də qanunları pozmağı adətə çevirmiş vətəndaşları islah edə biləcək. İndiki halda bu vacib metoddan istifadə etməliyik. Cinayət Məcəlləsinə əlavənin edilməsinin, İnzibati Xətalar Məcəlləsinə xüsusi maddələrin daxil edilməsinin artıq tərəfdarı deyiləm. Çünki, bir növ, karantin rejimini pozduğuna görə insanların 100 manat məbləğində cərimələnməsi, onların bu cərimələri ödəyə bilməməsi bir az da insanları hiddətləndirir, onları qəlibdən kənara çıxarır. Amma biz düşünəndə ki, onlar da dövlətin vətəndaşlarıdır, onlara qarşı dövlətin adından hər hansı sərt tədbirə yol vermək olmaz. Ona görə də burada başqa vasitələrdən istifadə etməliyik. Hər bir idarə, müəssisə rəhbəri öz işçilərini maarifləndirməli, yeri gələndə islah etməlidir. Hər birimizin vəzifəsi insanları inandırmaq, onları maarifləndirmək, qaydaları pozmamaları üçün işlər görməkdir. Məsələn, hər bir idarə-müəssisə rəhbəri rəhbərlik etdiyi kollektivin üzvlərinin davranışlarına görə məsuliyyət daşımalıdır. Eyni zamanda, ailə başçıları da bu işdə yaxından iştirak etməlidirlər. Təəssüf ki, bizdə kollektiv, ailə və fərdi məsuliyyət yoxdur. Bunlar fəqrli şeydir. Araşdırmaq lazımdır ki, sərt karantin rejimini pozduğuna görə cərimə edilən vətəndaşlar hansı müəssisənin işçiləridir? Həmin qurumlara da sorğu göndərmək lazımdır ki, sizin idarədə işləyən işçilər pandemiya dövründə sərt karantin rejimini pozub, bununla bağlı tədbir görün. Bu məsələyə yanaşma kompleks şəkildə olmalıdır. Hər birimiz bunu bir konstitusion borc kimi çiynimizə götürməliyik. Bu yoxdursa, insanlar yenə də qanunları pozacaqlar".

Vətəndaşların qanunsuz olaraq torpaq yollarla rayonlara getməsinin birbaşa qanunlarımıza hörmətsizlik olduğunu deyən Ş.Əliyev hesab edir ki, bu, xuliqanlıqdan betər bir haldır. "Sərt karantin rejimini pozan insanların çoxu hansısa müəssisələrdə, ticarət mərkəzlərində və s. işləyən adamlardır. Ona görə də hesab edirəm ki, kollektiv rəhbərləri özləri də bu məsələyə ciddi yanaşmalı, öz işçilərini dövlətin qanunlarının hörmət etməyə çağırmalıdırlar.

Bu gün sərt karantin rejimində bütün işləri polis həyata keçirir, amma bu işdə bələdiyyələr, icra hakimiyyəti orqanları, idarə və müəssisə rəhbərləri də birmənalı şəkildə polisə yardım etməlidirlər. Düşünürəm ki, burada ailənin, kollektivlərin çox böyük rolu var. Həmçinin də burada bələdiyyələr, icra hakimiyyəti orqanları, sahibkarlar, idarə və müəssisə rəhbərləri bu sahədə fəaliyyət göstərməlidirlər. Hər bir qurum rəhbəri tabeliyində olan işçiləri qaydaları pozmaqdan çəkindirməlidir" - deyə Ş.Əliyev vurğuladı.

***İradə SARIYEVA***

# Tərcümə Mərkəzi ilə AMEA-nın orfoqrafiya lüğəti ziddiyyəti...

**Azərbaycan dilinin yaşadılması, təbliği indiki şəraitdə daha vacib məsələlərdən biridir. Azərbaycan dilinin mühafizəsi, yaşadılması dövlət siyasətinin əsaslarından birini təşkil edir. Bunu ölkə başçısının dilimizlə bağlı ayrı-ayrı vaxtlarda verdiyi sərəncamlar, imzaladığı sənədlər və Dövlət Proqramı bir daha təsdiqləyir.**

Amma görək, bu işi müvafiq qurumlar məsuliyyətlə yerinə yetirə bilirlərmi? Təəssüf ki, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nəsimi adına Dilçilik İnstitutunun hazır olduğunu elan etdiyi orfoqrafiya lüğətindən xəbər yoxdur. Halbuki, həmin vəsaitin heç olmasa elektron variantı yayımlanmalı, ya bu qurumun, ya da Nazirlər Kabinetinin saytında yerləşdirilməli idi. Amma biz bunu hələ ki, görə bilmirik. Onu da vurğulayaq ki, sözügedən layihənin ilk variantları ictimai müzakirəyə verilmişdi və mütəxəssislərin bir qismi bunu təqdir etsə də, tənqid edənlər də az olmamışdı.

Bu günlərdə KİV-də məlumat yayılıb ki, AMEA-nın çap edəcəyi orfoqrafiya lüğətinin alternativi nəşr olunub, özü də Azərbaycan Tərcümə Mərkəzi tərəfindən. Məlumatlara görə, Azərbaycan Dövlət Tərcümə Mərkəzi tərəfindən ərsəyə gətirilən "Azərbaycan dilinin orfoqrafiya lüğəti" işıq üzü görüb.Tərcümə Mərkəzindən mətbuata verilən məlumata görə, lüğət müasir və qədim Azərbaycan sözlərinin, müxtəlif sahələrdə işləklik qazanmış terminlərin düzgün seçimi prinsipi üzrə, eyni zamanda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli, 174 nömrəli Qərarı ilə təsdiq olunmuş "Azərbaycan dilinin Orfoqrafiya Normaları"na uyğun tərtib edilib.

"Azərbaycan dilinin orfoqrafiya lüğəti"nin əvvəlki orfoqrafiya lüğətlərindən başlıca fərqli cəhətləri yazılış qaydası əvvəlki lüğətlərdə qüsurlu, yaxud iki, bəzən üç variantda verilmiş minlərlə söz və terminlərin vahid düzgün yazılış qaydasında verilməsi, minlərlə söz quramasından, arxaikləşmiş, qeyri-işlək ərəb-fars və digər əcnəbi sözlərdən, dialekt və loru ifadələrdən (ümumilikdə, 54 000-ə yaxın) təmizlənərək, əvvəlki orfoqrafiya lüğətlərində yer almamış 8 000-dən çox saf Azərbaycan sözünü, eləcə də elm, texnologiya, idman, mədəniyyət, siyasət və digər sahələrdə işləklik qazanmış terminləri özündə cəmləşdirməsidir.

Qeyd etdiyimi kimi, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu da "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ni çap etməli idi, lakin hələ etməyib. Dövlət Tərcümə Mərkəzi tərəfindən ərsəyə gətirilən bu lüğət isə AMEA-nın çap edəcəyi lüğətin alternativi sayılır. AMEA-nın "Azərbaycan dilinin orfoqrafiya lüğəti"nin çapı isə bir neçə dəfə təxirə salınıb.

Dövlət Tərcümə Mərkəzinin İdarə Heyətinin sədri, Xalq yazıçısı Afaq Məsud Dilçilik İnstitutunun hazırladığı orfoqrafiya lüğətini "Dilçilik İnstitutunun lüğətində danq-dunq, vıj-vıj kimi sözlər yer alıb"- deyə tənqid edib. Mərkəz tərəfindən ərsəyə gətirilmiş "Azərbaycan dilinin orfoqrafiya lüğəti"nə yazdığı ön sözdə Xalq yazıçısı belə fikirlər qeyd edib: "Hər bir dilin inkişafını, düzgün istifadəsini şərtləndirən başlıca meyarlar sırasında onun söz ehtiyatının, lüğət tərkibinin zənginliyi və saflığı ilə yanaşı, təsbit edilmiş orfoqrafiya qaydalarının səlistliyi, bu qaydalara əməl olunmasını özündə ehtiva edən müvafiq vəsaitlərin, başlıca olaraq, mükəmməl orfoqrafiya lüğətinin mövcudluğu dayanır. Orfoqrafiya lüğətçiliyi tariximizə nəzər saldıqda dilimizin söz ehtiyatını, düzgün yazılış qaydalarını müəyyən edən ilk orfoqrafik vəsaitin 1929-cu ildə latın əlifbasında işıq üzü görmüş "İmla lüğəti" (müəllif V.Xuluflu) olduğunu, nəşrin 1940, 1960, 1975-ci illərdə genişləndirilərək kiril əlifbasında, 2004, 2013-cü illərdə yenidən latın əlifbasında ("Azərbaycan dilinin orfoqrafiya lüğəti" - Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu) çap edildiyini, növbəti nəşrlərdə söz ehtiyatının, ilkin olaraq müəyyən edilmiş 20 000-dən dilin inkişaf prosesi üzrə 50 000-ə, sonrakı nəşrlərdə 75 000-ə yüksəldiyini, sonuncu beşinci və altıncı nəşrlərdə isə əvvəl 90 000-ə, daha sonra 110 000-ə çatdırıldığını izləmiş oluruq. İlk baxışdan 90 illik lüğətçilik tarixini əhatə edən bu statistika ana dilimizin lüğət tərkibinin həyat axarıyla dövrün tələblərinə uyğun zənginləşməsi, müxtəlif funksional üslub sahələri üzrə zəruri leksik ifadə imkanları qazanması səbəbindən irəli gələn təbii söz artımı prosesi təəssüratını yaratsa da, son lüğətlər üzərində təhlil və araşdırma işlərinə başlanarkən mənzərənin heç də göründüyü kimi olmadığı, xüsusilə son nəşrlərdə izlənən bu aktiv artım tempinin dilimizin aşınmasına, milli-mənəvi varlığımızın aşağılanmasına yönələn dağıdıcı proses olduğunun acı həqiqəti ilə üzləşmək məcburiyyətində qaldıq. Bu mənzərə 2004, 2013-cü illərdə Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu tərəfindən ərsəyə gətirilmiş orfoqrafiya lüğətlərində aparılan təhlil və araşdırmalar nəticəsində özünü daha qabarıq büruzə verdi.

Belə ki, əvvəlki lüğətlərdə yer almış minlərlə arxaikləşmiş, qeyri-işlək ərəb, fars sözlərinin bu nəşrlərdə də olduğu kimi saxlandığı, minlərlə sözün orfoqrafiya lüğəti formatına zidd olan ikili, bəzən üç variantda, yaxud tamamilə səhv yazılışda verildiyi, regional dialektlərə, loru ifadələrə gen-bol yer ayrıldığı, söz ehtiyatımızın mindən çox heç bir anlam kəsb etməyən çar-çar, car-cur, cur-cur, dız-dız, dın-dın, danq-danq, danq-dunq, vıj-vıj, vıj-qıj, zaranq-zaranq kimi səs təqlidi və onlara dair lüzumsuz törəmələrlə, eləcə də bir neçə sözdən düzəldilərək əcaib mənalar qazanmış ağızdandolma, cırtacırtetmə, cız-vızetmə, cövlanaçıxma, çəpikolma, dibdəndüşmə, dəyməağlarlıq, dır-dıretmə, ditetmə, dız-dızoynama, qalaq-qalaqoynama, əvəzedilməzsayılma, əzvayolma, fır-fırolma, gəzmələrdənolma, qəzetbasdırma, tartan-partanyazma, təyyarəçi-kişi, vəzifəgöstərmə, yumurtayadüşmə və s. bu kimi minlərlə söz quramalarıyla "zənginləşdirildiyi" araşdırma işlərinin ilkin mərhələlərindən müəyyən edildi. Yaranmış vəziyyət bu milli və dövləti məsələyə məsuliyyətli yanaşmanın vacibliyini, dilin konstitusiyası sayılan, dövlət gerbimiz, bayrağımız bərabərində milli dövlətçilik atributu olan dil qaynağı kitabımızın Azərbaycan ədəbi dilinin norma və qaydalarına müvafiq qaydada yenidən hazırlanması zərurətini gündəmə gətirdi".



**Möhsün Nağısoylu:** *"Hələ çap olunmamış orfoqrafiya lüğətinin tənqid edilməsi heç cür məntiqə sığmır"*

**Afaq Məsud:** *"Nəsimi adına Dilçilik İnstitutu tərəfindən ərsəyə gətirilmiş orfoqrafiya lüğətlərində aparılan təhlil və araşdırmalar nəticəsində..."*

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, A.Məsud Dilçilik İnstitutunun yeni hazırladığı lüğəti deyil, 2013-cü ildə nəşr edilən lüğəti tənqid edib: "Bizim hazırladığımız lüğətdən söhbət getmir. Afaq Məsud 2013-cü ildə çap olunan orfoqrafiya lüğətini tənqid edib.

Bizim orfoqrafia lüğəti hələ çap olunmadığı üçün onun tənqid edilməsindən söhbət gedə bilməz. 2018-ci ildə çıxan lüğəti də Nizami Cəfərov tənqid etmişdi. Mən həmin lüğətə ön söz yazmışam və orada qeyd etmişəm ki, bəzi tənqidi fikirlər var və onlar həqiqətə uyğun gəlir. Tənqidə səbəb olan nöqsanların hamısını yeni lüğətdə aradan qaldırmışıq. Orada bəzi təkrarçılığa yol verilmişdi, onu danmaq olmaz, təqlidi sözlərin hamısını çıxarmışıq. İndi onu nahaq yerə yazıb. O vaxt lüğət 2013-cü ildə çap olunmuşdu, indi 2020-ci ildir. Hələ çap olunmamış orfoqrafiya lüğətinin tənqid edilməsi heç cür məntiqə sığmır, "dınq-dınq", "vıj-vıj" kimi sözləri biz lüğətdən çıxarmışıq. Biz bütün tənqidləri nəzərə almışıq" - deyə M.Nağısoylu qeyd etdi.

***İradə SARIYEVA***

# Koronavirusla mübarizə dövründə formalaşmaqda olan gözəl ənənə - dəbdəbəli restoran toyları tədricən sıradan çıxır, adi nikah mərasimləri...

**3 aydan çoxdur ki, ölkədə toy mərasimlərinin keçirilməsinə icazə verilmir. Səbəb isə insanların kütləvi toplaşdığı məkanlarda koronavirusun sürətlə yayılmasıdır. Bəzi gənclər pandemiyanın nə zaman bitəcəyini gözləmədən, sadə nikah masasına əyləşərək, ailə həyatı qururlar.**

*"Həyatda hər cür çətinliklər ola bilər və bu o demək deyil ki, insanlar ancaq oturub gözləməlidirlər ki, təmtəraqlı günləri geri qayıtsın"*

## Əhməd Qəşəmoğlu: "Karantin qaydalarına riayət edərək ailə quran gəncləri dəstəkləmək lazımdır"

Xüsusi karantin rejimi, pandemiya 1500 nəfərin evlənməsinə əngəl ola bilməyib. İki aydan çoxdur bütün restoranlar fəaliyyətini dayandırsa da, nikah masasına əyləşənlər var.

Ekspertlər hesab edirlər ki, pandemiya sayəsində insanlar köhnə vərdişləri ilə vidalaşmalı olacaqlar. Bunlardan biri də təmtəraqlı toyların keçirilməsidir. Onların fikrincə, insanlar yaxın çevrələrinin iştirakı ilə kiçik məclis təşkil edə bilərlər və ya nikah masasına əyləşərək ailə qurmuş olarlar.

Sosioloq Əhməd Qəşəmoğlu bildirdi ki, o, karantin dövründə qaydalara riayət edərək ailə quran gəncləri dəstəkləyir: "Ailə quran gənclərimizi alqışlayıram. Həyatda hər cür çətinliklər ola bilər və bu o demək deyil ki, insanlar ancaq oturub gözləməlidirlər ki, təmtəraqlı günləri geri qayıtsın.

Bu, birinci dəfə deyil, müharibə zamanı da çətinlik olanda, mühit imkan vermэyəndə, toyları sadə şəkildə ediblər. İndi də şəraitimiz, ölkədə olan vəziyyət təmtəraqlı toy etməyə imkan vermirsə, bu o demək deyil ki, insanlar evlənməməlidir, heç kimə nikaha girməyə qadağa qoyulmur. Nikaha hamı girə bilər və bunu elə təşkil etmək olar ki, insanlar üçün təhlükəsi olmasın. Mən xarici ölkələrdə də bunun şahidi olmuşam ki, insanlar toyları açıq havada, bağçada edirlər.



**Bunu biz də belə təşkil edə bilərik ki, insanlar ara məsafəsi saxlasınlar. Toyun fəlsəfəsi odur ki, həmin gün ailə quran gənclərin yaddaşında qalsın. On nəfərlə elə gözəl məclis qurmaq olar ki, 300-400 adamlıq toydan daha yaddaqalan olar. Ona görə mən də ailə quran gənclərimizin bu addımını dəstəkləyirəm, təqdir edirəm. Düşünürəm ki, bu qaydalara riayət edərək ailə qurmaq lazımdır".**

***Günel CƏLİLOVA***

# Bankların bir məsələdə qeyri-şəffaf fəaliyyəti (?) - problemli kreditlərin məbləği həqiqətənmi gizlədilir?

**Məlum olduğu kimi, aprel-may aylarında 4 bankın fəaliyyəti dayandırılıb. "Ata Bank", "AGBank", "NBC Bank" və "Amrah Bank" ASC-nin fəaliyyəti dayanandan sonra ölkədə fəaliyyət göstərən digər bankların da vəziyyətinin normal səviyyədə olmadığı bildirildi.**

*"Mövcud olan 26 bankın əksəriyyətində problemli kreditlərin həcmi tam göstərilmir"*

## Əkrəm Həsənov: "Azərbaycanda yalnız 3 bank bağlanmaqdan sığortalıdır"

Mütəxəssislərin bildirdiyinə görə, aprel-may aylarında bağlanmış 4 bankda olan problemlər digər banklarda da ola bilər. Bu yaxınlarda Mərkəzi Bankın sədri Elman Rüstəmov da bildirib ki, 4 bankda olan problemlər digər banklarda da ola bilər. E. Rüstəmov onu da qeyd edib ki, bağlanan 4 bank Mərkəzi Banka və ictimaiyyətə açıqladığı maliyyə hesabatlarında təhrifə yol verib.

İddia olunur ki, ölkədə fəaliyyət göstərən 26 bankın əksəriyyətində problemli kreditlərin həcmi az göstərilir. Bu o deməkdir ki həmin bankların da kapitala dair sənədlərində problem var. Maraqlıdır, həmin banklar bağlana bilərmi?

Bank sahə üzrə mütəxəssis Əkrəm Həsənov bildirdi ki, konkret hansı bankların bağlana biləcəyini birmənalı şəkildə demək çox çətindir. Lakin Mərkəzi Bankın sədri E. Rüstəmovun son bir ayda keçirdiyi mətbuat konfranslarında səslәndirdiyi fikirlər əsasında formalaşan ehtimallarla təxminən hansı sayda bankın bağlana biləcəyindən danışmaq olar: "Mövcud olan 26 bankın əksəriyyətində bu problem var. Yəni onlar da problemli kreditlərin həcmini az göstərirlər. Əgər həmin bankların da kapitala dair sənədlərində belə faktlar varsa, onları da bağlanan 4 bankla eyni aqibət gözləyə bilər. Mən dəfələrlə demişəm ki, Azərbaycanda yalnız 3 bank bağlanmaqdan sığortalıdır. Bu məsələdə də yenə Mərkəzi Bankın sədrinə istinad edirəm. O, may ayında keçirdiyi mətbuat konfransında dedi ki, sahibkarlar hər banka pul qoymasınlar, bizim sistem əhəmiyyətli banklarımız var. Sistem əhəmiyyətli o demək deyil ki, həmin banklar ən yaxşıdır. Yox. Bu o deməkdir ki, həmin bankların vəziyyəti pis olsa da, dövlət onları bağlanmaqdan qoruyur.




**Çünki onlar bağlanarsa, bank sistemi çökər. Bu da ən azı ilk üçlüyə daxil olan banklardır. Üçlükdə isə "Beynəlxalq Bank", "Paşa Bank" və "Kapital Bank" yer alır. Mən bir sahibkar kimi ehtiyatlı davranmaq istəyirəmsə, əlimdə olan vəsaitin, ən azından, böyük hissəsini bu üç banka yatıraram, nəinki digər banklara".**

***Günel CƏLİLOVA***

№ 99 (4230) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

23 İYUN 2020-ci il

# Yuxu zamanı insan bədənində baş verən 10 möcüzəvi dəyişiklik...



**İnsan həyatın təxminən 1/3 hissəsini yuxuda keçirir. Yuxu həyati vacibdir. "Milli.Az" xəbər verir ki, yuxunun az olması insan sağlamlığına çox ciddi ziyan vurur, bir çox xəstəliklərin, o cümlədən, ürək-damar, sinir sistemi, xərçəng xəstəliklərinin risqini artırır.**

Yuxu zamanı orqanizm həm dincəlir, həm də bərpa olunur, orqanizmdə çox vacib proseslər gedir. 1. Qan dövranı və ürək ritmi yavaşıyır, ürək və damarlar "dincəlir". Xroniki yuxusuzluq, yuxunun az olması ürək və damarları həddindən artıq yükləyir ki, bu da ürək və damar xəstəliklərinin risqini artırır. 2. Yuxu zamanı arterial təzyiq 5-7 mm c.st. aşağı düşür. Bu səbəbdən yuxunun normal olması hipertoniyanın profilaktikasında mühüm rol oynayır. 3. Eşitmə "işləyir", iybilmə "yatır". Məhz buna görə istənilən güclü səs insanı oyada bilər, lakin əksər halda yatan insan hətta çox kəskin iyə oyanmır. 4. Onurğa sütunu düzəlir, fəqərəarası disklər dartınır və düzgün vəziyyət alır. Bu səbəbdən insanın boyu səhər saatlarında axşamla müqayisədə 0,5-1 sm daha hündürdür. 5. İnsan arıqlayır. Yuxunun kifayət qədər olması piylənmənin profilaktikasında böyük rol oynayır. 6. Dəri cavanlaşır. Kollagenin sintezi artır, oksigen mübadiləsi aktivləşir, dəri hüceyrələrinin yenilənməsi prosesləri stimullaşır, dərinin rəngi yaxşılaşır, kiçik qırışlar hamarlanır. 7. Stress hormonların səviyyəsi azalır. Bu isə həm sinir, həm immun, həm də ürək-damar sistemlərinin sağlamlığı üçün olduqca vacibdir. 8. İmmun sisteminin fəaliyyəti aktivləşir, immun hüceyrələrinin sintezi artır. Məhz bu səbəbdən həkimlər xəstə insana daha çox yatmağı və dincəlməyi tövsiyə edirlər. 9. Beyin gün ərzində qəbul etdiyi məlumatları sistemləşdirir. Yuxu beyinin normal fəaliyyəti üçün çox vacibdir. 10. Cinsiyyət hormonların ifrazı artır. Bu səbəbdən yuxunun az olması kişilərdə potensiyanı və libidonu azaldır.

## Elan

Abdullayev İlkin Ağaəhməd oğluna məxsus, Sabirabad rayonu, Zal Qarağac kəndi ərazisində yerləşən torpağın rəsmi sənədi olan torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Abşeron rayonu, Xırdalan şəhəri, H.Əliyev prospekti, ev 5, mənzil 18-də yaşayan, Ədliyyə Nazirliyinin əməkdaşı Səfərova Elmira Ərşad qızına məxsus xidməti vəsiqə (vəsiqənin nömrəsi TX 1049, verilmə tarixi 01.11.2019-cu il) itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Baş Kəldək kənd sakini Dəmirova Səmayə Şahin qızının adına 1994-cü ildə Baş Kəldək kənd orta məktəbi tərəfindən verilmiş attestat itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Qozlubulaq kənd sakini Nurəliyev Siyahbər Təhməz oğlunun və ailə üzvlərinin adına verilmiş JN-0149 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, İnçə kənd sakini Abduləlimova Dürdanə Abduləli qızının və ailə üzvlərinin adına verilmiş JN- 14 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

## Ölümcül və geniş yayılmış infeksiyanın yoluxma mexanizmi aşkar edildi

**Kanadanın Albert Universitetinin alimləri tənəffüs yoluxucu xəstəliklərin ən çox yayılmış və təhlükəli patogenlərindən birinin - tənəffüs sinxitial virusunun (RSV) insan hüceyrələrini necə yoluxdurduğunu müəyyən edib. Bu infeksiya gənclər və uşaqlar üçün böyük təhlükə yaradır.**

Ona qarşı dərman və peyvənd yoxdur. Milli.Az xəbər verir ki, tədqiqatçıların virusun nüfuzetmə mexanizmini izah edən məqaləsi "Nature" jurnalında dərc olunub. Virusun bənzərsiz xüsusiyyəti nüfuz etməzdən əvvəl bir neçə saat ərzində hüceyrəyə bağlı qalmasıdır. İnfeksiyada əsas rolu virusun bağlandığı hüceyrə reseptoru nukleolin oynayır və sonra hüceyrəni yoluxdurur. Tipik olaraq nukleolin hüceyrənin içərisində yerləşir. Alimlər onu səthə çıxmağa nəyin məcbur etdiyini bilmirdilər. Məlum olub ki, RSV əvvəlcə başqa bir IGF1R reseptoru və PKC-zeta zülalına bağlanır və qapı zəngi kimi hüceyrə daxilində siqnal verir. Əslində, virus normal hüceyrə funksiyasını öz məqsədləri üçün inkişaf etdirib. Bununla birlikdə, virusun inkişafının başlanğıcında nukleolinə və ya IGF1R-ə bağlı olub-olmaması barədə sual yaranır. Elm adamları gələcək tədqiqatlarda bu barədə məlumat əldə edəcəklər. Müəlliflər tədqiqatın hər il dünyada 200-200 min ölümə səbəb olan xəstəliyin müalicəsinin təsirli üsullarının inkişafına kömək edəcəyinə ümid edirlər.

## Virusları yox edən elektron maska...

**Müəllimlər tərəfindən hazırlanan, ultrabənövşəyi şüaların və elektrik sahənin istifadə edildiyi maska ilə virus və mikrobların bədənə girməsinə maneə törədiləcək. Koronavirusun sürətli bir formada insandan insana keçməsi maska istifadəsinin də əhəmiyyətini bir xeyli artırdı. Bazarda olan fərqli maskalar virusun yayılmasına maneə törədə bilir.**

Ancaq yeni maskalar virusları və mikrobları tamamilə öldürə bilir. Müəllimlərin koronavirus epidemiyası ilə birlikdə başladıqları layihə çərçivəsində hazırladıqları elektron maska virus və mikrobları ultrabənövşəyi şüaları sayəsində ortadan qaldırır.

Mütəxəssislər mövzu ilə bağlı şərh veriblər: "Maskanın içərisində ultrabənövşəyi şüanın virusu öldürə bilməsi üçün zamana ehtiyac vardı. Elektrik sahəsi yaradaraq, virusların öldürülməsi üçün lazımi müddəti tutmasını təmin etdik. Beləliklə, ultrabənövşəyi şüa ilə virusları öldürən bir maska hazırladıq".





**Qoç** - Gün uğurlu olacaq. Qətiyyətli olun. Şübhələr və nigaranlığın əsirinə çevrilməyin. Tərəddüd edən insanlarla müqayisədə daha ciddi uğurlar əldə edəcəksiniz. İşdə başqalarının çözə bilmədikləri problemi həll edə bilərsiniz.



**Buğa** - Günün əksər hissəsi mənfi təmayüllərin təsiri altında keçəcək. Ciddi itkilər və səhvlər riski var. Məşğul olmağa çalışdığınız işlər nə qədər ciddi olarsa, diqqətiniz bir o qədər çox olmalıdır.



**Əkizlər** - Pis gün deyil. Uğurlar səylərə mütənasib olacaq. Önəmli işi başa vurmaq və ya ağır problemi həll etmək istəyirsinizsə çalışmağa hazır olun. İntuisiyanız kəskin olmalıdır. Axşam saatlarında dəvət aldığınız yerə yollanın.



**Xərçəng** - Hər şey istədiyiniz kimi getməsə də, nikbinliyi itirməyin. Bədbinliyə qapılmasanız, ciddi uğurlar əldə edə bilərsiniz. Yaxın ətrafınızdakı insanlar sizdən yardım gözləyirlər. Yaxşı ideyaların həyata keçirilməsində enerjili olun.



**Şir** - Çətin gündür. Günün ilk yarısında nikbin olun, ruhdan düşməyin. Yaranan problemləri həll edin, işləri təxirə salmayın. Süst davranaraq fatuma bel bağlasanız, şansı əldən verəcəksiniz.



**Qız** - Mühüm hadisələrdən xali gündür. Qətiyyətli addımlar atmazdan əvvəl düşünün, bütün mənfi və müsbət yönləri hesablamağa çalışın. Çox önəmli işin həyata keçirilməsini bir qədər ertələsəniz, pis olmaz.



**Tərəzi** - Çətin, mürəkkəb gündür. Çalışdığınız sahənin bütün məqamlarında problemlər yarana bilər. İşdə həmkarlar və rəhbərliklə fikir ayrılıqlarını ciddiləşdirməyin. Emosiyalarınıza nəzarət edin.



**Əqrəb** - Önəmli işləri təxirə salmayın. Səhər saatlarında müsbət təmayüllərin təsiri güclü olsa da, saatlar keçdikcə zəifləyəcək. İşgüzar danışıqlar və müzakirələr keçirmək üçün əlverişli zamandır.



**Oxatan** - Bütün diqqəti işə yönəldin. Nigaranlıq, təlaş və həyəcanda heç bir xeyir yoxdur. Məhsuldar çalışın, işlərdə ləngimələrə yol verməyin. Belədə rəhbərlik və ya tərəfdaşlar sizi dəyərləndirəcəklər.



**Oğlaq** - Əlverişli və yaxşı gündür. İntellektual potensialınızın səviyyəsi yüksəkdir. Ən çətin problemlərin, ağır müşküllərin öhdəsindən gələ bilərsiniz. Bilik və bacarıqların artırılması, yeni informasiyaların əldə olunması üçün münasib zamandır.



**Dolça** - Bir qədər əvvəl başladığınız işləri tamamlayın. Yarımçıq iş qoymayın. Aktiv, enerjili, iradəli olun. Yaxın ətrafınızdakı insanların çox uzun müddətə həll edə biləcəyi məsələni qısa müddətdə çözə bilərsiniz.



**Balıqlar** - Əvvəlcədən hazırladığınız plan çərçivəsində hərəkət edin. Əlverişli zamandır. Fəaliyyət sahəsində irəliləyə bilərsiniz. İntuisiyanıza güvənin. İşgüzar münasibətlər müstəvisində çaş-baş qalmayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Hansı yumurta daha faydalıdır - qəhvəyi, yoxsa ağ?

**Yumurta insan orqanizmi üçün ən uyğun qida məhsuludur.**

Onun tərkibində insan orqanizmi üçün vacib olan maddələr (yağ, zülal, karbohidrat, vitamin, minerallar) ideal şəkildə balanslaşdırılıb.

"Saglamolun.az" bildirir ki, bunu tanınmış ukraynalı dietoloq Natalya Samoylenko deyib. Həmçinin, həkim qeyd edib ki, yumurtanın qabığının rəngi onun kimyəvi tərkibi, dadı, keyfiyyəti və digər göstəricilərinə heç bir təsir etmir. Yeni ağ və qəhvəyi yumurtanın faydası eynidir.

Yumurtanın qabığının rəngi, sadəcə, toyuq cinsindən asılıdır.

Məsələn, ağ toyuqlar ağ yumurta, qəhvəyi-qırmızı toyuqlar qəhvəyi rəngdə yumurta verir. Bu səbəbdən dükanlarda satılan yumurtaya yalnız onun rənginə görə artıq pul verməyə dəyməz.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.